

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



Dekabr 2020-ci il



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

dekabr 2020-ci il

**TƏSİSÇİ:**

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi

**BAŞ REDAKTOR:**

Fikrət Məmmədov

**REDAKSİYA HEYƏTİ:**

Fuad Ələsgərov
Toğrul Musayev
Azər Cəfərov
Adil Əliyev
Cavid Hüseynov
Elçin Xələfov

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT


Dünya azərbaycanlılarına ....4
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti ....5
Birinci vitse-prezident Mehriban Əliyeva Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımızı təbrik edib ....10
Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 5 yanvar tarixli 2408 nömrəli Sərəncamı ....11
Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər....12


## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ulu öndər Heydər Əliyevin əziz xatirəsi ədliyyə orqanlarında yad edilib ....14
Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib ....15
Qədirbilən xalqımız Prezidenti ilə qürur duyur....17
Ədliyyə Nazirliyində CPT-nin nümayəndə heyəti ilə videoformatda görüş....17
BQXK ölkəmizlə ədliyyə sahəsində səmərəli əməkdaşlıq edir....18
Məhkəmə-Hüquq Şurasının iclası keçirilib ....20
ÜST və Ədliyyə Nazirliyi vərəmlə mübarizəyə dair birgə qlobal vebinar keçirib ....20
Azərbaycan ədliyyə tarixini ehtiva edən dəyərli tədqiqat....22
Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq səmərə verir ....29
Azərbaycan Notariat Palatasında ....30
Ədliyyə Akademiyasında ilkin hazırlıq kursunu bitirmiş mediatorların iştirakı ilə tədbir keçirilib....30
Ədliyyə fəaliyyətinə dair onlayn qaydada ictimai müzakirələr keçirilib ....31


## YENİ QANUNLAR, FƏRMANLAR...


“Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 sentyabr tarixli 1160 nömrəli Fərmanı....35
"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 24 noyabr tarixli 202-VIQD nömrəli Qanunu....36
"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 28 dekabr tarixli 232-VIQD nömrəli Qanunu....39
“Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 3 noyabr tarixli 438 nömrəli Qərarı ....41

# Dünya azərbaycanlılarına

Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə səmimi arzu və diləklərimi çatdırıram.

2020-ci ili bütün dünyada koronavirus pandemiyası ilə gərgin mübarizə şəraitində başa vururuq. Yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan hökuməti ilk günlərdən ardıcıl tədbirlər həyata keçirmişdir. Bu addımlar, habelə Azərbaycanın köməyə ehtiyacı olan dövlətlərə humanitar yardımları Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüsü ilə hər iki təsisatın COVID-19-a qarşı mübarizəyə həsr olunmuş videoformatda Zirvə görüşü baş tutmuşdur.

Cari ilin dekabr ayında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.

Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunlarını təmas xəttinə cəmləşdirməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətlərindən xəbər verirdi. Bu ilin sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı beynəlxalq ictimaiyyət Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar edilmişdir.

Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir.

Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı dünya hərb tarixinə düşərək aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir.

Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirmişdir.

Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini yaşadan, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm. Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək onlara Allahdan rəhmət diləyir, yaralı hərbçilərimizin tezliklə şəfa tapmasını arzulayıram.

Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını almış, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.

Ermənistanın işğalı və vəhşiliyi nəticəsində başdan-başa dağıdılmış doğma Qarabağımızı əminəm ki, biz ən qısa zamanda əsl cənnətə çevirəcəyik.

Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur.

Əziz həmvətənlər!

Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
*Bakı şəhəri, 29 dekabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti



-Əziz həmvətənlər.

2020-ci il tarixdə qalır. 2020-ci il tarixdə bizim şanlı Qələbəmiz ili kimi qalacaqdır. Azərbaycan Ermənistanı 44 gün ərzində məğlub edərək öz doğma torpaqlarını işğaldan azad etmişdir. Bu Qələbə Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır. Bu, tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik.

Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Minsk qrupu çərçivəsində danışıqlar gedirdi. Ancaq danışıqlar heç bir nəticə vermədi. Faktiki olaraq, Ermənistan bu danışıqlarda, sadəcə olaraq, vaxt uzatmaq istəyirdi. Danışıqların imitasiyası prosesi gedirdi. 2003-cü ildə mən birinci dəfə Azərbaycan Prezidenti vəzifəsinə seçiləndə bəyan etmişdim ki, mənim üçün Prezident kimi əsas vəzifə torpaqlarımızı işğaldan azad etməkdir. Prezidentlik dövrümün birinci illərində müəyyən ümidlər var idi ki, bu məsələ sülh yolu ilə həll oluna bilər. Çünki hesab edirdim ki, beynəlxalq hüququn norma və prinsipləri gözəl zəmin yaradır, bilirdim ki, tarixi ədalət bizim tərəfimizdədir. Eyni zamanda, BMT Təhlükəsizlik Şurasının qətnamələri məsələnin həlli üçün hüquqi əsas yaradırdı. Ancaq illər keçdikcə görürdüm ki, ümidlərimiz azalır və bunun səbəbi Ermənistanın fəaliyyəti idi, siyasəti idi, addımları idi. İllər keçdikcə daha aydın görünürdü ki, Ermənistan bu məsələni həll etmək istəmir. Ermənistan, sadəcə olaraq, bizim torpaqlarımızı işğal altında əbədi saxlamaq istəyir və danışıqlarda iştirak etməklə, sadəcə olaraq, görüntü yaradır ki, elə bil, danışıqlar prosesi gedir və beynəlxalq vasitəçilər də bu prosesdə iştirak edirlər. İllər keçdikcə ümidlərimiz azalırdı. Mən isə hər zaman deyirdim, son 17 il ərzində demək olar, bütün beynəlxalq tədbirlərdəki çıxışlarımda deyirdim ki, bu məsələnin həlli bizim üçün prioritetdir. Deyirdim ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq. Deyirdim ki, Azərbaycan heç vaxt imkan verməyəcək ki, tarixi, əzəli Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Deyirdim ki, biz heç vaxt qondarma "Dağlıq Qarabağ respublikası"na müstəqillik

verməyəcəyik. Heç vaxt orada hər hansı bir səsvermə keçirilməyəcəkdir. Bütün bunları mən deyirdim və bu mövqe getdikcə daha da möhkəmlənirdi. Eyni zamanda, açıq görürdüm ki, əgər biz güclü olmasaq, əgər əlimizdə güc olmasa, bu məsələni həll edə bilmərik. Biz birinci Qarabağ müharibəsində torpaqlarımızı nə üçün itirdik? Ona görə ki, o vaxtkı Azərbaycan rəhbərliyi öz vəzifə borcunu yerinə yetirə bilmirdi. 1992-ci ildə Şuşanın, Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi faktiki olaraq Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaratdı və ondan sonra digər torpaqların işğalı qaçılmaz idi. Ordumuz demək olar ki, dağılmışdı, nizami ordu yaradılmamışdı, cəsarətli, qəhrəman övladlarımız, sadəcə olaraq, qəhrəman kimi vuruşaraq şəhid olurdular, torpaqlarımız əldən gedirdi. Gücümüz yox idi. Ona görə güc amili ön plana çıxdı. Bu gün artıq dəyişən dünyada güc amili demək olar ki, rəsmi qaydada ön plana çıxıbdır. Mən isə bunu hələ 10 il bundan əvvəl proqnozlaşdırırdım, ona görə güc toplamaq üçün bütün imkanlar səfərbər edildi. Güc isə iqtisadiyyatdır. İqtisadiyyat güclü olmasa hərbi gücdən, siyasi gücdən söhbət gedə bilməz. Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Artıq neçə ildir ki, Azərbaycan iqtisadi cəhətdən tam müstəqil ölkədir, heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil.

İqtisadi müstəqillik siyasi müstəqilliyimizi gücləndirdi, daha da cəsarətli siyasət aparıldı, müstəqil siyasət aparıldı. O siyasət ki, yalnız və yalnız Azərbaycan xalqının maraqlarına xidmət edir. Bu gün dünyada, dünya xəritəsində, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkələrin sayı o qədər də çox deyil. Azərbaycan onlardan biridir və Vətən müharibəsi bir daha onu göstərdi. Bütün çağırışlara, bütün təzyiqlərə rəğmən, biz istədiyimizə nail ola bilmişik. Düşməni torpaqlarımızdan qovmuşuq, hərbi yolla bu məsələni həll etmişik və ondan sonra Qələbəmizi siyasi yollarla daha da möhkəmləndirmişik.

Güc toplamaq üçün əlbəttə ki, düzgün siyasət aparılmalıdır. Son 17 il ərzində mənim fəaliyyətimdə ölkəmizin gücləndirilməsi, beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi, ölkə daxilindəki proseslərin müsbət məcrada getməsi əsas vəzifə idi. Heç bir təzyiq, heç bir təhdid məni bu yoldan döndərə bilmədi. Çünki bir amalım var idi - güclü Azərbaycan qurmaq, torpaqlarımızı işğaldan azad etmək!

Biz bu illər ərzində böyük, nəhəng layihələri icra etdik. Bu layihələr bizə imkan verdi ki, biz iqtisadi inkişaf baxımından dünyada qabaqcıl yerlərdəyik. İqtisadi inkişafın templərinə görə son 17 il ərzində Azərbaycan dünya miqyasında birinci yerdədir. Eyni zamanda, biz öz siyasətimizlə Ermənistanı zəiflətməli idik və bunu gizlətmirdik. Mən bunu təkcə bu gün demirəm, 10 il bundan əvvəl demişdim, nə qədər ki, torpaqlarımız işğal altındadır, biz Ermənistanı bütün layihələrdən, bütün regional təşəbbüslərdən məhrum edəcəyik, onları təcrid edəcəyik və bunu etdik. Baxın indi Avrasiyanın enerji, nəqliyyat, kommunikasiya xəritələrinə, ölkələri birləşdirən bütün o yollar, ölkələr üçün böyük fayda gətirən layihələr Ermənistandan yan keçib. Kim bunu edib? Biz, təzyiqlərə baxmayaraq. Mən bir dəfə demişəm, bir daha demək istəyirəm ki, hətta Bakı-Ceyhan neft kəmərinin çəkilişi ilə bağlı bizə qarşı əsassız ittihamlar irəli sürülürdü. Sanki biz təbiəti burada çirkləndiririk, ekoloji tarazlığa ziyan vururuq. Nə üçün? Çünki bu layihəni dayandırmaq, yaxud da ki, bu layihəni Ermənistan ərazisindən həyata keçirmək üçün. O təqdirdə bizim əl-qolumuz bağlı olacaqdı, bizim bütün neft və ondan sonra qaz ixracımız Ermənistanın əlində olacaqdı. Mən buna razı ola bilərdim? Əlbəttə ki, yox! Ona görə də təzyiqlərə məruz qalırdım. Bəzi ölkələrin istəklərini yerə vururdum. Çünki bu istəklər bizim milli maraqlarımıza zidd idi və 44 gün davam edən müharibə göstərdi kim kimdir, kim kimin dostudur. Azərbaycan xalqı bunu yaxşı görür və bilir. Mən isə bunu çoxdan bilirdim. Ona görə, bütün şər-böhtana, bütün təzyiqlərə, bütün təhdidlərə hazır idim. Bir amalım var idi - güclü dövlət yaratmaq, torpaqlarımızı işğaldan azad etmək, ədaləti bərpa etmək!

Ermənistanı zəiflətmək üçün müxtəlif yollardan istifadə etdik və bütün bu yollar ictim-

aiyyətə təqdim edilirdi. Biz heç nəyi hansısa məxfi formatda etməmişdik. Demişdim ki, təcrid edəcəyik, etdik, neft kəmərləri, qaz kəmərləri, nəqliyyat yolları Ermənistandan yan keçdi, telekommunikasiya xətləri Ermənistandan yan keçdi, elektroenergetika layihələri Ermənistandan yan keçdi. Ermənistan mümkün olan gəlirlərdən məhrum edildi.

Digər tərəfdən, Ermənistanı beynəlxalq arenada ifşa etmək, onların işğalçılıq siyasətini dünya ictimaiyyətinə çatdırmaq başlıca vəzifələrimizdən biri idi və buna nail olduq. Son 17 il ərzində demək olar ki, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar, qətnamələr qəbul ediblər. BMT Baş Assambleyası, hətta Avropa Şurası və Avropa Parlamenti kimi hər zaman anti-Azərbaycan mövqeyində dayanan təşkilatlar da məcbur olub münaqişə ilə bağlı həqiqəti əks etdirən qətnamələr qəbul etmişlər.

Biz Qoşulmama Hərəkatına üzv olduq. Yadımdadır, o vaxt bəziləri bunu səhv addım kimi qiymətləndirirdi. Ancaq mən bilirəm ki, bu, düzgün addım idi. Üzv olan kimi, dərhal 120 ölkənin dəstəyi ilə münaqişəyə dair qətnamə qəbul etdirdik - bizim maraqlarımıza xidmət edən qətnaməni. Bu gün Qoşulmama Hərəkatının sədri kimi öz sözümüzü dünya miqyasında deyirik. Onu da bir daha demək istəyirəm ki, müharibə zamanı BMT Təhlükəsizlik Şurasında münaqişə ilə bağlı bizə sərf etməyən qərəzli anti-Azərbaycan təşəbbüslərinin qarşısının alınmasında Qoşulmama Hərəkatına üzv ölkələr öz sözünü dedi. Bu təşəbbüs baş tutmadı.

Biz İslam Əməkdaşlıq Təşkilatı ilə sıx əlaqələr qurduq. Tarixdə bu gün bu əlaqələr ən yüksək zirvədədir. İslam Əməkdaşlıq Təşkilatı bu münaqişə ilə bağlı düzgün, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən qətnamələr qəbul etdi. Biz müsəlman ölkələri ilə təmaslar əsnasında onlara erməni vəhşilikləri haqqında məlumat çatdırırdıq. Dağıdılmış, təhqir edilmiş məscidlərin şəkillərini mən öz həmkarlarıma göstərmişdim və sual verirdim ki, siz bundan sonra bu ölkə ilə necə əlaqələr qurursunuz? Bu şəkilləri görəndən sonra siz onlarla necə görüşürsünüz, onların əlini sıxırsınız? Axı, bütün bu vəhşiliklər təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı edilən cinayətdir.

Biz regionda qonşu ölkələrlə sıx münasibətlər qurduq. Çünki əvvəllər nədənsə hesab olunurdu ki, regionda Azərbaycanın ənənəvi müttəfiqləri var və Ermənistanın ənənəvi müttəfiqləri var. Biz bu konsepsiyanı darmadağın etdik. Bu gün qonşularımızın hamısı bizim yaxın dostlarımızdır. Bizim bütün qonşularımızla həm ikitərəfli, həm üçtərəfli formatda çox gözəl əməkdaşlığımız var. Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatı var, Azərbaycan-İran-Türkiyə üçtərəfli formatı var, Azərbaycan-İran-Rusiya üçtərəfli formatı var. Ermənistanın hər hansı ölkələrlə bu formatı varmı? Yoxdur. Bu, bizim siyasətimizin düzgün olmasının bariz nümunəsidir. Biz Ermənistanı onların uzun illər saydıqları dayaq nöqtələrindən məhrum etdik. Çünki siyasətimizi düzgün qurmuşuq. Hər zaman öz siyasətimizi açıq aparmışıq. Heç bir ölkəyə qarşı heç bir avantürada yer almamışıq. Demişdim ki, Azərbaycan ərazisindən heç bir ölkəyə qarşı, o cümlədən, ilk növbədə, qonşulara qarşı heç bir təxribat xarakterli addım, təşəbbüs olmayacaq. Beləliklə, dünyada, regionda, qonşular arasında hörmət qazanmışıq və ölkəmizi gücləndirmişik. Bizimlə hesablaşmağa başlamışlar. Bizim sözümüzə inanırdılar və inanırlar. Həmişə demişəm, sözüm imzam qədər qüvvətlidir.

Ona görə, bütün bu amillər öz rolunu oynadı. Ermənistanın təqdim etdiyi saxta tarixi darmadağın etmişik, beynəlxalq tədbirlərdə dünya ictimaiyyətinə Kürəkçay sülh müqaviləsi haqqında kifayət qədər dolğun məlumat vermişik. Hər kəs gördü ki, erməni xalqı Qarabağ bölgəsində, sadəcə olaraq, son 200 il ərzində yaşayır, oraya köçürülüblər. Xocalı həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmışıq və çatdırırıq. Xocalı haqqında son 17 ilə qədər kimsə danışırdı? Sanki belə bir cinayət olmayıb. Sanki bu soyqırımı olmayıb. Çünki Ermənistan bunu ört-basdır etməyə çalışırdı. Hətta bu hərbi cinayəti Azərbaycanın üstünə atmaq istəyir. Necə ki, Vətən müharibəsi dövründə Gəncəni və digər şəhərləri Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutandan sonra deyirdi ki, Azərbaycan bunu özü edib. Belə

həyasız ölkə ola bilərmi? Belə vicdansız adamlar ola bilərmi? Görünür ki, ola bilər. Bu da Ermənistandır. Ona görə, Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük səylər göstərdik - həm dövlət, həm Heydər Əliyev Fondu. Bu gün 13 ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyıb. Müharibə haqqında həqiqətləri, dağıdılmış şəhərlər, kəndlər haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdıq. Halbuki bizim o kəndlərə, şəhərlərə getmək imkanımız yox idi. Heç bir beynəlxalq təşkilat oraya getmirdi. UNESCO, hansı ki, bu gün bizə irad tutmağa çalışır, guya biz erməni dini abidələrini burada qoruya bilməyəcəyik. Halbuki bu, yalandır. Azərbaycanda bütün dinlərin abidələri qorunur. Bir dəfə gedib o torpaqlara? Bir dəfə Şuşa məscidində olub? Zəngilanda dağıdılmış məsciddə olub? Ağdam məscidində olub? Orada ermənilər donuz, inək saxlayırdılar. İndi bizə irad tuturlar.

Ermənistan oralara heç kimi buraxmırdı, heç kimi. Hətta Minsk qrupuna sədrlik edən ölkələrin səfirlərini buraxmırdı. Biz güc-bəla ilə iki dəfə nail olduq ki, Minsk qrupu işğal edilmiş torpaqlara faktaraşdırıcı missiya göndərsin. Sonuncu missiya on il bundan əvvəl getmişdi. Hər il mən bunlara deyirdim ki, niyə getmirsiniz? Gedin, oraya baxın, qanunsuz məskunlaşma gedir. Bizim bütün şəhərlərimiz, kəndlərimiz dağıdılır. Kəndlərimizin, şəhərlərimizin adları dəyişdirilir, tarixi abidələrimiz dağıdılır, yaxud da ki, erməniləşdirilir. Getmirdilər ki, Ermənistan buraxmır. Ermənistan kimdir ki, buraxmasın. Ona görə, bax, bütün bu işləri görərkən biz Qələbə günümüzü yaxınlaşdırırdıq. Əgər mənim əvvəlki çoxsaylı çıxışlarıma nəzər yetirsəniz, görərsiniz, demişdim ki, hər gün hər birimiz bu müqəddəs anı öz əməyimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırdıq, bu müqəddəs Qələbə anı gəldi.

Müharibənin qaçılmaz olması ilə bağlı artıq neçə ildir ki, regionun işləri ilə məşğul olan müxtəlif ekspertlər öz fikirlərini ifadə edirlər. Eyni zamanda, bütün bu illər ərzində bizə ünvanlanan sifarişlər arasında, necə deyərlər, bir tezis üstünlük təşkil edirdi ki, münaqişənin hərbi həlli yoxdur. Kimsə bunu ortalığa atıb. Mən təxminən bilirəm kim. Bütün başqa təşkilatlar, bu işə aidiyyəti olan - olmayan, bölgə məsələləri ilə məşğul olan - olmayan, hamı elə bir ağızdan deyirdi ki, münaqişənin hərbi həlli yoxdur.

Mən son illər ərzində bir çox ölkələrdə rəsmi səfərlərdə olmuşam - əlbəttə ki, həm bölgə ölkələrində və başqa ölkələrdə. Bütün bu səfərlər işıqlandırılıb. Bir çox hallarda heç bölgə ilə, bizim regionumuzla əlaqəsi olmayan hansısa həmkarım deyirdi ki, münaqişənin hərbi həlli yoxdur. Sən haradan bilirsən? Deyiblər ki, bax, bunu deməlisən İlham Əliyevə, müxtəlif dairələr deyiblər. Dünya idarəetməsində fəal rol oynayan ölkələr, dairələr bunu deyirdilər, belə demək lazımdır ki, bizi bu yoldan çəkindirsinlər, heç vaxt bu olmasın. Status-kvo əbədi qalsın, dəyişdirilməsin. Halbuki, bəzən də deyirdilər ki, status-kvo qəbuledilməzdir. Amma sonra bundan da, necə deyərlər, vaz keçdilər. Başladılar deməyə ki, status-kvo dayanıqlı deyil. Deməli, qəbulediləndir. Amma bizim üçün qəbuledilən deyildi. Biz Ermənistan, onun havadarları, onun himayədarları və ermənipərəst qüvvələr qarşısına təkbaşına çıxmışdıq. Təkbaşına! Heç kimi bizi bizə sərf etməyən sülh müqaviləsi variantına məcbur edə bilmədi. Halbuki bir neçə dəfə belə cəhdlər oldu. Bir neçə dəfə, hətta müəyyən saxtakarlıq edərək sənədlərin tərtibatında guya səhvlər olub deyə bizi hansısa varianta təhrik etməyə, sövq etməyə çalışırdılar. Amma keçmədi, keçməyəcəkdi. Çünki güclü iradə var idi və var. Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Torpaqlarımızın işğaldan azad edilməsi ən başlıca vəzifə idi və biz bu vəzifəyə, bu hədəfə doğru inamla addımlayırdıq.

Son illərdə vəziyyət gərginləşməyə başlamışdı. Artıq Ermənistan da öz niyyətini gizlədə bilmirdi. Çünki danışıqların mənası artıq faktiki olaraq itmişdi və təkcə bu son iki il ərzində yox, təqribən 5-6 il ərzində. Ermənistan işğal edilmiş torpaqlarda müntəzəm olaraq hərbi təlimlər keçirirdi. O hərbi təlimlər Ağdam rayonu ərazisində keçirilirdi. Ermənistan rəhbərliyinin sözlərinə görə, bu təlimlərdə 10 minlərlə canlı qüvvə iştirak edirdi. Bizim mövqelərimizə qarşı hücum

təşkil edilirdi. Hərbi vertolyot hücum etmişdi və o vertolyot vuruldu. Bu da Ermənistana imkan verdi ki, bunu bəhanə gətirərək desin, bəli, Azərbaycan bizim vertolyotumuzu vurdu, indi danışıqlar dayanmalıdır. Hər dəfə müəyyən irəliləyişə imkan yarandıqca, belə təxribatlara əl atırdılar.

Aprel döyüşləri Ermənistana dərs olmadı. Bir neçə gün davam edən Aprel döyüşləri kiçik də olsa, bizim qələbəmizlə nəticələndi. Ermənistan məcbur oldu, yerinə oturduldu, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik, göstərdik ki, bizi heç kim və heç nə yolumuzdan döndərə bilməz, çəkindirə bilməz. Amma dərs olmadı onlara. Aprel döyüşlərindən sonra Ermənistanın o vaxtkı rəhbərliyi demək olar, söz vermişdi ki, işğal edilmiş torpaqlardan çıxacaq. Bu, həqiqətdir. Amma sonra orada ya özləri təşkil etmişdilər, ya doğrudan da belə hadisə baş verdi, polis bölməsi zəbt edildi, terrorçu qrup orada terror aktı törətdi və ondan sonra Ermənistan rəhbərliyi dedi ki, görürsünüz, burada vəziyyət gərgindir, biz bunu edə bilmirik. Bizi aldatdılar. 2018-ci ildə Günnüt əməliyyatı - Naxçıvan əməliyyatı da bizim uğurlu əməliyyatımız idi. Biz böyük ərazini götürdük, işğaldan azad etdik və strateji yüksəklikləri zəbt etdik. Yenə də dərs olmadı. Yəni, biz onlara şans verirdik. 2018-ci ildə Ermənistanda, - indi bəziləri buna inqilab deyir, bəziləri çevriliş deyir, özləri bilərlər, - dəyişiklik baş verdi, ümidlər oyandı və bu ümidlər əsassız deyildi. Mən dərinə getmək istəmirəm. Biz ümid edirdik ki, yeni rəhbərlik keçmiş səhvlərdən təmizlənəcək və bu məsələ öz həllini tapacaq. Amma bu da baş vermədi. Demək olar ki, bir ildən sonra bizə qarşı qəbuledilməz addımlar atıldı, bizi faktiki olaraq aldatdılar, öz daxili problemlərini həll etmək, daxili müxalifəti əzmək, həbs etmək üçün vaxt uddular. Ondan sonra nə oldu, Azərbaycan xalqı yaxşı bilir. Qəbuledilməz bəyanatlar, Azərbaycan xalqının təhqir edilməsi, yersiz hərəkətlər, biabırçı addımlar, bəyanatlar və təxribat xarakterli hərbi əməliyyatlar - iyul ayında, avqust ayında və nəhayət, sentyabrın 27-də. Mən dedim yetər artıq, irəli! 44 gün ərzində düşmənin ordusu məhv edildi. Bu gün Ermənistan ordusu yoxdur.

Müharibə dövründə mən əziz xalqımı müharibə ilə bağlı müntəzəm olaraq məlumatlandırırdım. Müharibənin gedişatı xalqımızın gözü qabağında keçirdi. Müharibədən sonra bəzi əməliyyatlar haqqında, bəzi qərarlar haqqında müəyyən məlumat da verilir. Bu məsələyə çox vaxt ayırmaq istəmirəm. Amma 44 gün ərzində Azərbaycan Ordusu Ermənistan ordusunu darmadağın etdi. Bizim qəhrəman əsgər və zabitlərimiz Azərbaycanın gücünü göstərdi. Düzgün planlaşdırılmış və həyata keçirilmiş əməliyyatlar sayəsində, texniki imkanlardan istifadə edərək, qəhrəman övladlarımızın qəhrəmanlığına, rəşadətinə söykənərək biz mümkün olmayanı etdik, düşməni məhv etdik, düşmən ağ bayraq qaldırdı, düşmən diz çökdü. Üç yüzdən çox şəhər və kəndlərimizi işğaldan azad edəndən sonra, qədim Azərbaycan şəhəri, hamımız üçün doğma olan Şuşanı və ardınca bir çox kəndləri azad edəndən sonra düşmən tam təslim oldu, kapitulyasiya aktına imza atdı və işğalda olan digər torpaqlardan geri çəkilməyə məcbur oldu.

Müharibə arxada qaldı. Müharibə bizim gücümüzü göstərdi, əyilməz iradəmizi göstərdi, birliyimizi göstərdi, müharibə rəmzinə, qələbə rəmzinə çevrilən dəmir yumruq öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq.

Azərbaycan Ermənistanı məğlub etdi. Bunu bütün dünya gördü, bu, dünyanın gözü qarşısında baş verdi. Heç kimi bizi dayandıra bilmədi. Demişdim ki, sona qədər gedəcəyik, tarix versinlər bizə, tarix versinlər ki, işğalçı Ermənistan dövləti bizim torpaqlarımızdan nə vaxt çıxacaq. Tarix veriləndən sonra biz hərbi əməliyyatlarımızı dayandırdıq.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Hər il mən xalqa müraciət edərkən dünya azərbaycanlılarını bu

gün münasibətilə və Yeni il münasibətilə təbrik edirəm. Bu dəfə isə bu təbrikin xüsusi önəmi var. Mən bilirəm ki, dünyada yaşayan azərbaycanlılar müharibə dövründə Azərbaycanda gedən prosesləri, müharibəni yaxından izləyiblər. Onlar öz dəstəyini ifadə edirdilər. Mənə göndərilən minlərlə məktub arasında xaricdə yaşayan azərbaycanlılardan da kifayət qədər çox məktublar vardır. Onlar həm mənəvi dəstək göstərdilər, həm də həmrəylik göstərdilər. Bu gün onlara müraciət edərək deyirəm, siz fəxr etməlisiniz və fəxr edə bilərsiniz ki, qəhrəman Azərbaycan xalqının övladlarısınız. Bu gün hər bir azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı və xaricdə yaşayan soydaşlarımız haqlı olaraq fəxr edə bilərlər ki, biz müzəffər xalqın övladlarıyıq, nümayəndələriyik.

Mən bütün soydaşlarımızı bu bayram münasibətilə təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqını, ilk növbədə, tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm. Gələcəkdə bizi böyük işlər gözləyir, ölkəmiz üçün yeni dövr başlayır, quruculuq dövrü, inkişaf dövrü, torpaqlarımızın bərpası günləri bizi gözləyir. Bu dövr şərəfli dövr olacaqdır. Baxmayaraq ki, düşmən işğal etdiyi və artıq azad olunmuş torpaqlarda hər şeyi dağıdıb, biz bütün şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik, Qarabağ bölgəsində cənnət yaradacağıq. Bizim xalqımız buna layiqdir. Bizim xalqımıza qələbə yaraşır və qələbə həmişə bizimlə olacaq!

Əziz bacı-qardaşlarım, sizi Yeni il münasibətilə, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqını böyük Zəfər münasibətilə təbrik edirəm. İstərdim ki, Yeni il ərəfəsində hamımız birlikdə bizi Qələbəyə aparan şüarı deyək: Qarabağ Azərbaycandır!

# Birinci vitse-prezident Mehriban Əliyeva Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımızı təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib. Paylaşımda deyilir:**

"Əziz həmvətənlər!

Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, hər birinizə xoş arzularımı çatdırıram. Yola saldığımız il yaddaşımıza Şanlı Zəfər ili kimi əbədi həkk olunacaq. Bu Zəfərin qazanılmasında xalqımızın sarsılmaz birliyi, həmrəyliyi, qətiyyəti və iradəsi müstəsna rol oynayıb. Qoy bütün məsələlərin öhdəsindən uğurla gəlməyimizə imkan yaradan birliyimiz günü-gündən möhkəmlənsin! Uca Tanrıdan hər birinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik, Vətənimizə - sülh, əmin-amanlıq və tərəqqi diləyirəm!".



# Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq **qərara alıram:**

1. 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 5 yanvar 2021-ci il*
*N 2408*

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 17 il keçir.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub. Azərbaycanın dövlət himni səsləndirilib.



Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.



Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

***

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Ulu öndər Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş, canlı əfsanəyə çevrilmiş ən böyük azərbaycanlıdır.

Ümummilli Liderin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç bir hakimiyyət sahibi etməyib. Meydana silahsız gələn bu dahi insan qüdrətli ordu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri, özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi.

Ulu Öndərimizin əbədiyyətə qovuşmasının 17-ci ildönümü bu dahi şəxsiyyətin ən böyük arzusunun - işğal altındakı torpaqlarımızın azad olunması ilə nəticələnən şanlı Qələbəmizin sevincini qeyd etdiyimiz bu tarixi günlərə təsadüf edir. Əbədiyaşar Liderin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi, bütün ömrü boyu sədaqətlə xidmət etdiyi doğma Azərbaycanımızın ərazi bütövlüyünün bərpası idi. Ümummilli Lider illər öncə böyük uzaqgörənliklə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".



Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin bu arzusunu, vəsiyyətini onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Ümummilli Liderin qurucusu olduğu rəşadətli Azərbaycan Ordusu yerinə yetirdi. İldən-ilə güc toplayan Azərbaycan, onun rəşadətli Ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı. Dəmir yumruqla beli qırılan, başı əzilən düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu, ərazi bütövlüyümüz təmin edildi. Öz liderinə, Ali Baş Komandanına inanan və güvənən bu ordu, igid Azərbaycan əsgəri 30 illik işğala qanı-canı bahasına son qoydu.

Vətən müharibəsində qazanılan Böyük Qələbə münasibətilə Bakıda keçirilən möhtəşəm Zəfər paradı ümummilli lider Heydər Əliyevin əbədiyaşar ideyalarının onun layiqli siyasi varisi, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin təntənəsi oldu.

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi ədliyyə orqanlarında yad edilib

**Dekabrın 12-də Ədliyyə Nazirliyinin rəhbərliyi Fəxri Xiyabana gələrək müasir Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyub, dahi rəhbərə sonsuz ehtiramlarını bildiriblər. Həmçinin Akademik Zərifə xanım Əliyevanın məzarı önünə tər çiçəklər düzülüb.**



Ulu Öndərin vəfatının ildönümü ilə əlaqədar ədliyyə orqanlarında xüsusi karantin rejiminə əməl olunmaqla tədbirlər keçirilib, əbədiyaşar liderin nazirlikdəki büstü önünə gül səbəti qoyulub, əziz xatirəsi yad olunub.

Ədliyyə naziri Fikrət Məmmədov ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətindən bəhs edib, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində mühüm xidmətlərindən danışaraq, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ordumuzun qəhrəmanlığı və xalqımızın həmrəyliyi sayəsində 30 ildir Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızı azad etməklə Ulu Öndərin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirdiyini vurğulayıb.

Dövlət başçısının və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə dekabrın 10-da keçirilmiş Zəfər Paradının ölkəmizin hərbi, iqtisadi qüdrətini, ordumuzun gücünü və xalqımızın qələbə əzmini, eyni zamanda böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı ilə daim inkişaf edən Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını bir daha bütün dünyaya nümayiş etdirdiyini, Ulu Öndərin uca ruhunun şad olduğunu qeyd edib.

Tədbirdə azad olmuş torpaqlarımızda ölkə Prezidentinin rəhbərliyi ilə quruculuq işlərinə başlanıldığı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə rəhbəri olduğu və Ulu Öndərin ideyalarını layiqincə yaşadan Heydər Əliyev Fondu tərəfindən dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihə həyata keçirildiyi bildirilib, torpaqlarımızın dirçələcəyinə və yenidən orada həyatın tezliklə qaynayacağına əminlik ifadə olunub.

Dahi liderin yüksək dövlətçilik amallarına daim sadiq qalan ədliyyə işçiləri bu şərəfli yolda ölkə başçısının ətrafında sıx birləşərək üzərlərinə düşən vəzifələri böyük əzm və məsuliyyətlə yerinə yetirəcəklərini söyləyiblər.

Anım günü ilə bağlı nazirliyin Heydər Əliyev muzeyində zəngin və maraqlı ekspozisiyalarla tanışlıq olub, filmlər, eləcə də foto və video slaydlar nümayiş etdirilib. Bu ərəfədə nazirliyin əməkdaşları tərəfindən müalicə alan hərbçilərimizə baş çəkilərək sovqatlar təqdim olunub, habelə yaralıların və şəhid ailələrinin təminatına dəstək məqsədilə YAŞAT Fonduna ianələr edilib.

# Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət idarəçiliyində həyata keçirdiyi genişmiqyaslı islahatlara, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında aparılan dəyişikliklərə uyğun olaraq, 2020-ci ildə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın tərkibi yenilənib.**



Sentyabrın 15-də Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yeni tərkibdə ilk iclası videoformatda keçirilib. İclasda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Komissiyanın sədri seçilib.

Komissiyanın sədri Samir Nuriyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyən etdiyi hədəflərə çatmaq üçün Komissiyanın üzərinə düşən əsas vəzifələri iclas iştirakçılarının diqqətinə çatdırıb. O qeyd edib ki, Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, hərtərəfli və innovativ xarakter daşıyır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın inkişaf strategiyasının mühüm tərkib hissəsini korrupsiyaya qarşı qətiyyətli mübarizə təşkil edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, bu sahədə yeni strateji baxışlar və vəzifələr müəyyən edilib, korrupsiyaya qarşı mübarizə keyfiyyətcə yeni müstəviyə keçib, uğurlu iqtisadi, hüquqi və sosial siyasət nəticəsində Azərbaycanda şəffaf ictimai münasibətlər sistemi formalaşıb. Dövlət idarəçiliyində səmərəliliyin təmin edilməsi, açıq hökumət prinsiplərinin tətbiqi, elektron xidmətlərin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindəndir. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın daha da artırılması üçün ictimai nəzarət mexanizmlərinin tətbiqi genişləndirilməli, ictimai şuraların fəaliyyətinin səmərəliliyi təmin edilməlidir. Komissiya sədri vurğulayıb ki, korrupsiyaya qarşı mübarizə sahəsində müasir çağırışlara uyğun səmərəli mexanizmlərin tətbiqi üçün yeni təşəbbüslərin irəli sürülməsi zəruridir. Bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların səbəblərinin müəyyən edilməsinə və bu kimi mənfi halların qarşısının alınması üçün səmərəli mexanizmlərin yaradılmasına yönəldilməlidir.

İclasda korrupsiyaya qarşı mübarizə sahəsində bu günədək görülən işlər nəzərdən keçirilib və növbəti illərdə bu sahədə reallaşdırılması zəruri olan tədbirlərin vahid strateji çərçivəsini müəyyənləşdirmək, prioritetləri önə çəkmək və bu tədbirlərin ölkədə gerçəkləşdirilən islahatlar kursuna cavab verməsini təmin etmək məqsədilə yeni Milli Fəaliyyət Planının əsas istiqamətləri müzakirə olunub, Milli Fəaliyyət Planının layihəsinin hazırlanması barədə tapşırıqlar verilib.

İclasda yerli icra hakimiyyəti orqanlarında korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərlə bağlı aparılan ibtidai istintaq və əməliyyat-axtarış tədbirləri barədə məruzələr dinlənilib, bu sahədə şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün verilən təkliflər müzakirə edilib.

Bundan əlavə, iclasda Komissiyanın fəaliyyətinin təşkili ilə bağlı bir sıra məsələlər

həll edilib, yeni katib təyin olunub, Komissiya yanında 3 işçi qrupun (Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı İşçi Qrup, Təhsil və maarifləndirmə ilə bağlı İşçi Qrup, Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə ilə bağlı İşçi Qrup) formalaşdırılması qərara alınıb.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri müzakirə edilib, bu əməkdaşlığın əhəmiyyəti nəzərə alınmaqla İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində keçirilən tədbirlərdə, habelə Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunda (GRECO) Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətlərinin tərkibi təsdiq edilib.

İclasda çıxış edən Komissiya üzvləri qanunun aliliyinin və dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin olunması məqsədilə açıqlıq və hesabatlılıq prinsiplərinin tətbiqinin daha da genişləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Vətəndaşlara dövlət xidmətlərinin korrupsiya hallarını istisna edən şəraitdə, operativ və resurslara qənaət etməklə göstərilməsi üçün müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə və innovativ həllərin tətbiqinin genişləndirilməsi zərurəti qeyd edilib. İctimai nəzarətin təmin edilməsi məqsədilə mövcud mexanizmlərin tətbiqinin təkmilləşdirilməsi, vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlığın artırılması, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan qeyri-hökumət təşkilatlarına dəstək verilməsi və ictimai əhəmiyyətli qərarların qəbulunda onların rolunun artırılması məsələsinə baxılıb. Qanunvericiliyin təkmilləşdirilməsi üçün zəruri olan istiqamətlər qeyd edilib, habelə maarifləndirmə tədbirlərinin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Komissiyanın növbəti dövr üçün iş planı təsdiq edilib.

***

Qeyd olunmalıdır ki, "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasında korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyalarını Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya həyata keçirir.

Komissiya 15 nəfər üzvdən ibarət tərkibdə təşkil edilir. Komissiyanın 5 üzvü Azərbaycan Respublikasının Prezidenti, 5 üzvü Azərbaycan Respublikasının Milli Məclisi, 5 üzvü isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təyin edilir.

Yeni çağırış Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 5 iyun tarixli Qərarı ilə parlamentin 5 üzvü Komissiyaya təyin olunub. Qərara əsasən bu siyahıya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Adil Əliyev, Milli Məclisin deputatları Əminə Ağazadə, Elşad Mirbəşir oğlu, Arzu Nağıyev və Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyev daxil edilib.

Bundan əlavə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2020-ci il 26 avqust tarixli qərarı ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Komissiyaya üzv təyin edilməklə həmin dövlət orqanı tərəfindən təyin olunan 5 üzvün siyahısı tamamlanıb. Onunla yanaşı, bu siyahıya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə Hüquq Şurasının Sədri Fikrət Məmmədov, Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri Ramiz Rzayev, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Sədri Anar Bağırov daxildirlər.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 31 avqust tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunan Komissiya üzvləri qismində aşağıdakı şəxslər təyin ediliblər:

Samir Nuriyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri

Fuad Ələsgərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Gündüz Kərimov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi

Vilayət Eyvazov - Azərbaycan Respublikasının Daxili İşlər naziri

Əli Nağıyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi.

# Qədirbilən xalqımız Prezidenti ilə qürur duyur

## *Ədliyyə naziri vətəndaşların videoqəbulunu keçirib*

**Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Vətənimizin azadlığı, respublikamızın tərəqqisi və əhalinin rifahı naminə müstəqil, uzaqgörən və müdrik siyasəti qədirbilən xalqımız tərəfindən daim dəstəklənir. Milyonlarla insanın ürəyində dərin sevgi və rəğbət qazanan ölkə başçısı hər bir vətəndaşın prezidenti olduğunu sübut etməklə dövlətə və vətənə sədaqətlə xidmət nümunəsi göstərir.**

Dövlət başçısının insanlara layiqli xidmət göstərilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılır, qlobal pandemiya şəraitində mütəmadi keçirilən videoqəbullarda paytaxtın və müxtəlif rayon və şəhərlərin, o cümlədən işğaldan azad olunan Qarabağ bölgəsindən olan ümumilikdə 300-ə yaxın vətəndaşların müraciətləri dinlənilərək qaldırılan məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görülüb.

Dekabrın 23-də ədliyyə naziri Fikrət Məmmədov tərəfindən vətəndaşların növbəti videoqəbulu keçirilib, hər bir vətəndaş diqqətlə dinlənilərək ədliyyə fəaliyyətinə dair müraciətlərinin araşdırılıb konkret tədbirlər görülməsi ilə bağlı aidiyyəti məsul işçilərə müvafiq tapşırıqlar verilib.

İndiki pandemiya şəraitində videoformatda qəbulların keçirilməsindən məmnunluqlarını bildirən vətəndaşlar müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və yenilməz sərkərdəliyi ilə qazanılmış Şanlı Qələbə ilə hədsiz qürur və sevinc hissi keçirdiklərini vurğulayıb, dövlət başçısına tarixi zəfərlə əlamətdar olan doğum günü münasibətilə səmimi təbriklərini və ən xoş arzularını sonsuz məhəbbətlə ifadə ediblər.

Bildiriblər ki, xalqımız son 30 ildə qarşıdan gələn Yeni ili ilk dəfə olaraq sülh şəraitində, həmçinin uzun müddət işğal altında olmuş ərazilərimizdə qarşılayacaq, respublikamızda bundan sonra daha xoşbəxt, firavan həyat hökm sürəcək və müstəqil dövlətimiz ölkə Prezidentinin rəhbərliyi ilə gündən-günə inkişaf edərək möhkəmlənəcəkdir.

# Ədliyyə Nazirliyində CPT-nin nümayəndə heyəti ilə videoformatda görüş

**Azərbaycanda səfərdə olmuş İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) prezidenti Mikola Qnatovski və Komitənin digər təmsilçiləri ilə dekabrın 22-də ədliyyə naziri Fikrət Məmmədovun videokonfrans formatında görüşü olub.**

Görüşdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafı çərçivəsində penitensiar sahədə həyata keçirilən islahatlar, cəza siyasətinin humanistləşdirilməsi, habelə COVİD-19 pandemiyasına qarşı ilə bağlı görülən tədbirlər və CPT-nin tövsiyələri üzrə görülmüş işlər barədə məlumat verilib.

Məhkum və təqsirləndirilən şəxslərin həyat və sağlamlıqlarının qorunması ilə bağlı humanist tədbirlər, dövlət başçısının əfv Sərəncamı ilə virusa yoluxması daha riskli olan yaşı 65-dən yuxarı məhkumların əksəriyyətinin azadlığa buraxıldığı, 2.400-ə yaxın məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad olunduğu və ya yüngül rejimli müəssisəyə keçirildiyi, 822 nəfərin isə ev dustaqlığı və digər alternativ qətimkan tədbirlərinin tətbiqi nəticəsində həbsdən azad edildiyi vurğulanıb. Cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı yeni qanunvericiliyə əsasən ötən dövrdə 5.300-dən çox məhkumun cəzadan tamamilə azad olunduğu və ya cəza müddətinin azaldıldığı qeyd edilib, məhkəmələr

tərəfindən ilbəil azadlıqdan məhrumetməyə alternativ cəzalara üstünlük verildiyi, bu məqsədlə elektron qolbaqların geniş tətbiq olunduğu bildirilib.

Videokonfrans zamanı CPT-nin ölkəmizə səfərlərinin nəticələri, Komitənin tövsiyələrinin icrası, azadlıqdan məhrum edilmiş şəxslərin hüquq və azadlıqlarının qorunması, saxlanma şəraitinin, tibbi və digər təminatlarının təkmilləşdirilməsi və digər maraq doğuran məsələlər müzakirə olunub.

Tədbirdə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənov, Cəzaların icrasına nəzarət üzrə müfəttişliyin rəisi Malik Ələkbərov və Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Əbilov iştirak ediblər.

# BQXK ölkəmizlə ədliyyə sahəsində səmərəli əməkdaşlıq edir




**Sentyabrın 25-də Ədliyyə naziri Fikrət Məmmədov Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı Nümayəndəliyinin səlahiyyət müddəti başa çatan rəhbəri xanım Elena Aymone Sessera və yeni rəhbəri xanım Arian Bauer ilə görüşüb.**

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə insan haqlarının, o cümlədən məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının qorunması, qanunvericiliyin təkmilləşdirilməsi, cəza-icra siyasətinin humanistləşdirilməsi üzrə görülən məqsədyönlü tədbirlərdən danışıb, nazirliklə penitensiar və tibb sahəsində Beynəlxalq Qızıl Xaç Komitəsinin səmərəli əməkdaşlığını vurğulayıb.

Bildirilib ki, BQXK ilə 20 il əvvəl imzalanmış Sazişin məhkumların hüquqlarının etibarlı təminatına xidmət etdiyi nəzərə alınaraq, dövlətimiz insan hüquqlarına sadiq qalaraq cari ilin mayında müvafiq Protokol imzalanmaqla Sazişin qüvvədə olma müddəti uzadılıb.

Görüşdə həmçinin qeyd olunub ki, BQXK ilə sıx qarşılıqlı fəaliyyətdə məhkumların tibbi və dərman təminatı yaxşılaşdırılıb, penitensiar müəssisələrdə vərəmə qarşı mübarizədə birgə səylər yüksək nəticələr verməklə müsbət təcrübəmiz dünyada örnək olub. Azərbaycan təcrübəsinin digər dövlətlərə yayılması və

öyrənilməsi üçün Bakıda Təlim Mərkəzi yaradılıb və Ümumdünya Səhiyyə Təşkilatı ona beynəlxalq status verib. Səmərəli fəaliyyət göstərən bu Mərkəzdə son illərdə Avropa və digər qitələrdən 20 dövlətin çoxsaylı nümayəndələri müsbət təcrübəmizdən bəhrələnib və artıq bəzi ölkələrdə bizim təcrübəyə uyğun modellər tətbiq olunur.

Qonaqlar BQXK-nın Azərbaycanla ədliyyə sahəsində qarşılıqlı fəaliyyətinin uğurlu nəticələrindən məmnunluğunu ifadə edib, vərəmlə mübarizədə Azərbaycanın müsbət təcrübəsinin dünyada geniş yayıldığını, təcrübi səfərlərin əhəmiyyətini qeyd edib.

Hazırda məhkumlara psixoloji yardımın göstərilməsi ilə bağlı yeni layihənin həyata keçirildiyini bildirən xanım E.Sessera onun da uğurla nəticələnəcəyinə və beynəlxalq maraq doğuracağına ümidvar olduğunu söyləyib.

Söhbət zamanı dövlət başçısının və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə COVİD-19 qlobal pandemiyasına qarşı aparılan mübarizə tədbirləri çərçivəsində penitensiar müəssisələrdə görülən zəruri preventiv işlərə toxunulub, BQXK-nın penitensiar və tibb xidmətlərinə göstərdiyi dəstək yüksək qiymətləndirilib. Məhkumların hüquqlarının təmin olunması məqsədilə qısamüddətli görüşlərin təşkili üçün infeksiyanın yayılmasının qarşısının alınması ilə bağlı sanitar-epidemioloji tələblərə uyğun otaqların müasir texnologiyalarla təchiz olunmaqla qurulması məmnunluqla qarşılanıb.

Bildirilib ki, ölkə başçısının humanist siyasətinin növbəti təzahürü olaraq yaşı 65-dən yuxarı olan 176 məhkum əfv olunub, davamlı xarakter daşıyan vaxtından əvvəl cəzadan şərti azad etmə institutun tətbiqi intensivləşib. Qanunvericiliyə edilmiş dəyişikliklərlə cinayət işlərində videokonfransın keçirilməsi bu institutun daha asan, çevik və məhkumların təhlükəsizliyi təmin olunmaqla tətbiqinə əlverişli imkan yaradıb.

Cari ilin ötən dövründə 2.000-dək şəxs vaxtından əvvəl cəzadan azad olunub və ya yüngül rejimli müəssisəyə keçirilib ki, 80%-ə yaxını karantin rejimi dövrünə təsadüf edir. Pandemiya dövründə həmçinin, 460 nəfər ev dustaqlığı və digər alternativ qətimkan tədbirlərinin tətbiqi nəticəsində həbsdən azad ediliblər.

Eyni zamanda son üç il ərzində cinayət qanunvericiliyinə iki dəfə mühüm dəyişikliklər edilərək cəza siyasəti humanistləşdirilib, bəzi əməllər dekriminallaşdırılıb, cəza müddətləri yüngülləşdirilib, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqi genişləndirilib.

Ötən dövrdə yeni qanunların təsiri altına düşən penitensiar və probasiya xidmətləri üzrə məhkumlarla bağlı məhkəmələrə göndərilmiş təqdimatlara baxılaraq 2.000-ə yaxın məhkum cəzadan tamamilə azad edilib, 3.000-dən çox məhkumun isə cəza müddəti azaldılıb. Həmçinin humanistləşdirmə tədbirləri çərçivəsində probasiya xidməti yaradılaraq azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron qolbaqlar tətbiq olunur. Hazırda 3.000-ə yaxın məhkumun elektron qolbaq daşıyır və onlara səmərəli probasiya nəzarəti həyata keçirilir.

Qonaqlar verilən məlumatları maraqla qarşılayaraq penitensiar müəssisələrdə pandemiyanın qarşısının alınması üzrə görülən tədbirləri, xüsusi karantin dövründə məhkumların hüquqlarının təmin olunmasına xidmət edən humanist institutların davamlı tətbiqini, bu məqsədlə müasir İKT-lərin imkanlarından geniş istifadə olunmasını yüksək qiymətləndiriblər.

Komitə nümayəndəliyinin yeni rəhbəri xanım A.Bauer ölkəmizdə olmağından məmnunluğunu ifadə edərək BQXK-nın Azərbaycanla əməkdaşlığının səviyyəsindən heyranlığını bildirib, ötən dövrdə ədliyyə sahəsində böyük işlərin görüldüyünü vurğulayaraq qarşılıqlı fəaliyyətin bundan sonra da uğurla davam etdirilməsinə hazır olduğunu söyləyib.

Nazir səmərəli əməkdaşlığa görə xanım E.Sesseraya təşəkkürünü bildirib, ona və Komitənin yeni rəhbəri A.Bauerə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Görüşdə əməkdaşlığın gələcək perspektivləri barədə faydalı fikir mübadiləsi aparılıb.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

# Məhkəmə-Hüquq Şurasının iclası keçirilib

**Sentyabrın 23-də Məhkəmə-Hüquq Şurasının iclası keçirilib. Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən işlər, mühüm qanunvericilik və institusional tədbirlər qeyd olunub. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən məhkəmə islahatının dərinləşdirilməsi haqqında ötən il imzalanmış Fərmanla hakim ştatları sayının 200 vahid - üçdə bir qədər artırılmasının məhkəmə sisteminin təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.**

Yeni ayrılmış ştatların yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına komplektləşdirilməsi, habelə seçim zamanı çevikliyin təmin edilməsi məqsədilə Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin seçilməsi Qaydaları təkmilləşdirilib və seçim prosesi davamlı xarakter alıb. İmtahanlarda müasir texnologiyalar tətbiq edilməklə sualların kompüter vasitəsilə cavablandırması və nəticələrin dərhal elan edilməsi təsbit olunub.

Bu Qaydalarla ötən ildən başlamış müsabiqələr nəticəsində 43 nəfər hakimliyə namizəd bütün imtahanları, o cümlədən yarım illik tədris kursunu, habelə məhkəmələrdə stajkeçməni uğurla başa vurub və Hakimlərin Seçki Komitəsi tərəfindən Məhkəmə-Hüquq Şurasına təqdim ediliblər.

Şuranın bu günlərdə keçirilmiş iclaslarında Qaydalara uyğun olaraq həmin namizədlərin hər biri ilə fərdi söhbətlər keçirilib, onların ixtisaslaşmaları aparılaraq birinci instansiya məhkəmələrinə hakim vəzifəsinə təyin olunmaları üçün təkliflərin hazırlanması qərara alınıb.

İclasda Hakimlərin Seçki Komitəsi tərəfindən müsabiqələrin xüsusi karantin rejimi qaydalarına riayət olunmaqla davam etdirilməsi təqdir olunub.

Qeyd olunub ki, bu müsabiqələrdə, həmçinin 64 nəfər test üsulu ilə və yazılı imtahanları uğurla başa vurub və həmin namizədlərlə yaxın günlərdə şifahi imtahanlar keçiriləcəkdir. Hakim olmaq üçün sənədlərini təqdim etmiş növbəti 250 nəfər namizədlə test imtahanının təşkili üçün Dövlət İmtahan Mərkəzi ilə birgə tədbirlər görülür. Sənədlərin sadələşdirilmiş formada - elektron qəbulu isə hazırda davam etdirilir.

Zəruri sosial davranış və sanitar-epidemioloji qaydalar gözlənilməklə keçirilən iclasda hakimlər barədə intizam icraatlarına da baxılıb. Şura tərəfindən məhkəmələrdə işlərin bölüşdürülməsinin monitorinqi zamanı aşkar edilmiş pozuntulara görə Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin sədri Kəramət Əliyevə irad tutulub, korrupsiyaya şərait yaradan hallara və digər nöqsanlara yol verdiyinə görə Sabirabad Rayon Məhkəməsinin sədri Füzuli Pənahova töhmət verilib. Eyni zamanda icraatda olan daha 4 hakim barədə intizam işlərinə Şuranın növbəti iclaslarında baxılajaqdır.

# ÜST və Ədliyyə Nazirliyi vərəmlə mübarizəyə dair birgə qlobal vebinar keçirib

**Ümumbəşəri sosial bəla olan vərəm xəstəliyinə qarşı mübarizə bütün dünyanı narahat edir.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təhlillərinə görə, hər il dünyada vərəmdən 1 milyon 700 min insan vəfat edir, həbsxanalarda isə vərəmin yayılma riski 100 dəfə daha yüksəkdir. Vərəmə qarşı ÜST tərəfindən tövsiyə edilən strategiyalar bu xəstəliyi aşkar və müalicə etməyə, yoluxmanın azaldılmasına xidmət edir. Hazırda son strategiya dünyanın 180-dən artıq ölkəsində uğurla tətbiq edilir.

COVİD-19 qlobal pandemiyasının dünya ölkələrinin səhiyyə sistemlərində ciddi gərginliyin yaratması, həmçinin əhalinin həssas təbəqəsi olan məhkumlar arasında vərəm əleyhinə tibbi xidmətlərin göstərilməsində çətinliklərin

yaşanması ilə müşayiət olunur.

Bununla əlaqədar bu ilin əvvəlində ÜST azadlıqdan məhrumetmə yerlərində COVİD-19-un qarşısının alınması və nəzarətdə saxlanılması barədə aralıq təlimatı dərc edərək ölkələri həbsxanalarda vərəmin qarşısının alınması və müalicəsi ilə əlaqəli bütün növ xidmətlərin göstərilməsini təmin etməyə çağırıb.

Oktyabrın 6-da ÜST Avropa Regional Bürosunun və Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə "COVİD-19 pandemiyası dövründə azadlıqdan məhrumetmə yerlərində vərəmin müalicəsi və profilaktikası" mövzusunda videokonfrans formatında qlobal vebinar keçirilib.

Tədbirin keçirilməsində məqsəd pandemiya zamanı həbsxanalarda vərəmin qarşısının alınması və müalicəsi üçün əsas tövsiyələrin nəzərdən keçirilməsi, bu xəstəliyin davamlı, vaxtında və dəqiq aşkarlanması, diaqnozu, müalicəsi ilə bağlı yaxşı təcrübələrin mübadiləsinin aparılması olub.

Ümumdünya Səhiyyə Təşkilatının, "Sərhədsiz həkimlər" Beynəlxalq Tibbi Humanitar Təşkilatın, Azadlıqdan Məhrumetmə Yerlərində Vərəm və Ağciyər Xəstəliklərinə qarşı Beynəlxalq Birliyin və 26 dövlətin çoxsaylı nümayəndələrinin qatıldığı vebinarı ÜST Avropa Regional Ofisinin səhiyyə sahəsində təmsilçisi Dr. Masood Dara və Azərbaycanın Ədliyyə Nazirliyi Tibb baş idarəsinin rəisi Dr. Rəfail Mehdiyev açıb, tədbirin vərəmlə qlobal mübarizənin gücləndirilməsi, müsbət təcrübələrin öyrənilməsi və tətbiqi baxımından əhəmiyyətini qeyd ediblər.

Ölkəmizin nümayəndəsi tədbirdə çıxışı zamanı, ilk öncə, işğalçı Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatlara diqqət çəkərək Azərbaycan Ordusu tərəfindən ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu əks-hücum əməliyyatları barədə iştirakçıları məlumatlandırıb.

Bildirib ki, 30 ilə yaxındır ərazilərimizi işğal altında saxlayan, silahlı qüvvələrini qeyd-şərtsiz torpaqlarımızdan çıxarılması ilə bağlı BMT-nin və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymayan Ermənistanın təcavüzkar siyasətinin nəticəsi olaraq 90-cı illərin əvvəllərində iqtisadiyyatımızın iflic vəziyyətinə düşməsi sosial problemlərə səbəb olmaqla vərəmin yayılması üçün əlverişli şərait yaratmışdı.

Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra əhalinin rifahının yaxşılaşdırılmasına yönələn məqsədyönlü tədbirlər həyata keçirilib, vərəmlə mübarizə diqqətdən kənarda qalmayıb. Bu sahədə ÜST-ün tövsiyələrinə uyğun strategiyalar hazırlanıb, xüsusi qanun qəbul olunub, beynəlxalq təşkilatlarla birgə proqram və layihələr həyata keçirilir, o cümlədən penitensiar müəssisələrdə vərəmə qarşı səmərəli mübarizə aparılır.

Ölkə Prezidenti cənab İlham Əliyevin fərman və sərəncamlarına əsasən penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının qorunması, tibbi və dərman təminatının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülür, penitensiar müəssisələr müasir tibb avadanlığı ilə təchiz olunur.

Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə uzun illər məhkumlara yüksək ixtisaslı tibbi yardımın göstərilməsi sahəsində səmərəli əməkdaşlıq edilərək məhkumlar arasında vərəmə qarşı mübarizədə müsbət nəticələrə nail olunub, vərəmin dəqiq diaqnozunu ən qısa vaxtda müəyyən etməyə imkan verən yeni ekspress-test dünyada ilk dəfə olaraq penitensiar müəssisələrdə məhz Azərbaycanda tətbiq edilib. Eyni zamanda, vərəmli məhkumların effektiv müalicəsinin təmin edilməsi, onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə ixtisaslaşdırılmış müalicə müəssisəsi fəaliyyət göstərir.

Bütün bunlar penitensiar müəssisələrdə vərəmdən ölümün və ona yoluxma hallarının sayının ilbəil azalmasına səbəb olub. BQXK ilə bu sahədə məqsədyönlü fəaliyyətin başlandığı 1995-ci illə müqayisədə penitensiar müəssisələrdə vərəmdən ölüm 136 dəfəyədək azalıb.

Ölkəmizdə ÜST-ün tövsiyə etdiyi vərəmin uğurlu müalicəsi üzrə hədəf göstəriciləri aşaraq dərmanlara həssas vərəmli məhkumların müalicəsi üzrə 95 faiz, müalicəyə çətin tabe olan dərmanlara davamlı formalı vərəmə düçar olmuş xəstələrin müalicəsi üzrə isə 92 faiz müsbət nəticələrə nail olunub ki, bu da dünyada ən yüksək göstəricilərdəndir.

Tibb baş idarəsinin rəisi qeyd

edib ki, Azərbaycanın vərəmə nəzarət təcrübəsi ÜST, BQXK və s. beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilərək müsbət təcrübəmiz dünyada örnək olub, illik Səhiyyə Mükafatına layiq görülüb. Azərbaycan təcrübəsinin digər dövlətlərə yayılması və öyrənilməsi üçün Bakıda Təlim Mərkəzi yaradılıb və Ümumdünya Səhiyyə Təşkilatı ona beynəlxalq status verib. ÜST-ün Baş Direktoru Dr. Tedros Adhanom Qebreyesus Mərkəzin fəaliyyəti ilə tanış olaraq vərəmlə mübarizədə müsbət nəticələrə nail olunmasında dövlətimizin güclü siyasi iradəsini və müsbət təcrübəmizin dünyada daha geniş yayılmasının önəmini vurğulayıb.

Səmərəli fəaliyyət göstərən Mərkəzdə ötən dövrdə Avropa və digər qitələrdən 20 dövlətin Ədliyyə və Daxili İşlər nazirlikləri, penitensiar müəssisələrin tibb xidmətləri ilə yanaşı, hətta Səhiyyə nazirliklərinin çoxsaylı nümayəndələri müsbət təcrübəmizdən bəhrələnib və artıq bəzi ölkələrdə bizim təcrübəyə uyğun modellər tətbiq olunur.

R.Mehdiyev 2020-ci ildə koronavirus pandemiyası şəraitində də məhkumların tibbi təminatının, vərəmlə mübarizənin daim diqqətdə saxlanıldığını, vərəmin profilaktikası və müalicəsi işinə nəzarətin gücləndirildiyini vurğulayıb, qlobal COVİD-19 infeksiyasına qarşı dövlət başçısının və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə görülən qəti tədbirlər çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən aparılan zəruri tibbi, profilaktik və digər preventiv işləri qeyd edib.

Tibb xidmətinin fəaliyyətini ÜST-ün tövsiyələrinə uyğun quraraq işini gücləndirilmiş rejimdə davam etdirdiyi, Səhiyyə Nazirliyi və TƏBİB ilə sıx əlaqədə məhkumların və təqsirləndirilən şəxslərin koronavirus və digər infeksiyalara, o cümlədən vərəmə yoluxmasının qarşısının alınması üzrə ardıcıl tədbirlərin görüldüyü, sanitariya-epidemioloji nəzarət gücləndirilməklə geniş maariflәndirmə işinin aparıldığı, həkim və digər tibb işçilərinin xüsusi təlimlərə cəlb olunduğu bildirilib.

Diqqətə çatdırılıb ki, pandemiya dövründə tibb xidməti tərəfindən penitensiar müəssisələrdə həyata keçirilən vərəmə nəzarət tədbirlərinin intensivliyi azaldılmayıb və koronavirus infeksiyası əleyhinə yönəldilmiş tədbirlərlə paralel aparılıb. Hər iki istiqamətdə uğurla həyata keçirilən işlər vərəm üzrə statistik epidemioloji göstəricilərin davamlı yaxşılaşması ilə yanaşı, COVİD-19 infeksiyasının nəzarətdə saxlanmasına və idarə olunmasına xidmət edir.

Onlayn konfransda müxtəlif dövlətlərin təmsilçiləri tərəfindən çıxışlar edilib, Azərbaycanın vərəmlə mübarizədə müsbət təcrübəsinə böyük maraq göstərilərək, ölkəmizin nailiyyətlərinin digər dövlətlərdə yayıldığı vurğulanıb, faydalı müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

---

# Azərbaycan ədliyyə tarixini ehtiva edən dəyərli tədqiqat

**Bu gün müstəqil və müasir Azərbaycanın hər bir vətəndaşı, bütün varlığı ilə, sidq ürəkdən bu yurda, bu məmləkətə bağlı olan hər bir vətən övladı ölkəmizin qazandığı parlaq qələbə və tarixi nailiyyətlərlə haqlı fəxr edir, qürur hissi keçirir. Məhz bu günlərdə 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsi həm siyasi, həm də hərbi arenada Azərbaycanın şanlı qələbəsi ilə yekunlaşdı.**

Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə öz şərəfli missiyasını uğurla icra edərək böyük qələbəyə imza atmaqla xalqımızın zəfər salnaməsini yazdı. 44 gün davam edən zəfər yürüşündə dövlət başçısının qəti iradəsi və müdrik xarici siyasəti, müzəffər ordumuzun şücaəti, əzmi və qəhrəmanlığı, xalqımızın birliyi və həmrəyliyi nəticəsində erməni işğalçıları həm hərbi, həm də siyasi meydanda ağır məğlubiyyətə uğradıldı, Böyük Qələbə qazanılaraq tarixi əda-

lət bərpa olundu, xalqın inamı özünə qaytarıldı.

Ədliyyə işçilərinin peşə bayramı günü də bu il xalqımızın şanlı Qələbəsi ilə xüsusilə əlamətdar oldu. Hazırda Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biri, Cənubi Qafqazın lider dövləti, cəmiyyətin, insan həyatının bütün sahələrində irəlidə gedən ölkəsi, həm də dünyəvi, demokratik, hüquqi dövlət kimi dünya birliyində ön sıralardadır. Xalqımız özünün dahi oğlu Heydər Əliyevin zəkası gücünə tarixən çox qısa bir zaman kəsiyində sarsılmaz ədalət bünövrəsi üzərində ucalan və insan haqlarını uca tutan yeni Azərbaycan dövləti yaratmışdır.

Bu gün ulu öndərin yüksək dövlətçilik amalları və siyasi kursu tam ümumxalq məhəbbəti qazanmış, müasir, qətiyyətli və yaradıcı dövlət xadimi kimi dünyanın ən sayılıb-seçilən siyasi xadimlərindən olan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə inkişaf etdirilərək bütün sahələrdə misilsiz uğurlar qazanılır.

Ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların real təzahürü olaraq, hər şeydən öncə, xalqımızın tarixi ənənələrinə söykənən uğurlu məhkəmə-hüquq islahatları nəticəsində ədliyyə və məhkəmə sistemi də inkişaf edir, mühüm nailiyyətlər əldə olunur. İndi Azərbaycanın paytaxtı dünyamiqyaslı ədliyyə forumlarının, beynəlxalq məhkəmə-hüquq tədbirlərinin keçirildiyi məkana çevrilib.

Ümummilli lider Heydər Əliyevin "tariximizin hər səhifəsi bizim üçün əzizdir" fikrinə istinadən deyə bilərik ki, Azərbaycan ədliyyəsinin tarixini indiki və gələcək nəsillərə çatdırmaq, ədliyyə fəaliyyətinin ictimaiyyət arasında təbliğini genişləndirmək məqsədilə məhkəmə-hüquq tariximizin bütöv, mükəmməl və sistemli halda araşdırılmasını ehtiva edən, tarixi sənədlər və zəngin fotomateriallar əsasında hazırlanmış oxunaqlı, nəfis, sanballı bir kitaba ciddi ehtiyac vardı.





4 | 12 dekabr 2020-ci il | RESPUBLİKA

# Azərbaycan ədliyyə tarixini ehtiva edən dəyərli tədqiqat

Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir!
Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri.

Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəkdir!
İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bu yaxınlarda Azərbaycan ədliyyəsinin 100 illik tarixindən bəhs edən "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" kitabının işıq üzü görməsi bu yöndə ən sanballı mənbədir. Belə ki, bu kitab Azərbaycan ədliyyəsinin keçmişinə, qət edilmiş yola nəzər salmaq üçün dəyərli vəsait, həmçinin ölkə ədliyyəsinin tarixi və müasir dövrdəki fəaliyyəti barədə zəngin və dəqiq məlumatların alınması baxımından da faydalıdır.

Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, birinci dərəcəli dövlət ədliyyə müşaviri Fikrət Məmmədovun müəllifliyi və rəhbərliyi ilə redaksiya qrupu tərəfindən Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə hazırlanan kitabda Azərbaycanın ədliyyə tarixi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə və sovet hakimiyyəti illərində ədliyyə orqanlarının təşkili və fəaliyyəti, ümummilli lider Heydər Əliyevin ədliyyə sisteminə daim diqqət və qayğısı, ölkəmizdə həyata keçirilən mütərəqqi məhkəmə-hüquq islahatları və Prezident İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sisteminin davamlı inkişafı barədə ətraflı məlumatlar öz əksini tapmışdır.

Ədliyyə tariximizə çox qiy-

mətli töhfə olan sanballı araşdırmada, düzgün olaraq, xalqımızın ədliyyə tarixi ən qədim zamanlardan başlayaraq yaşadığımız günlərədək bütöv halda, bir-birini tamamlayan və zamanın tələblərinə uyğun olaraq inkişaf edən, təkmilləşən, yeniləşən vahid bir sistem halında təqdim olunub.

Kitab araşdırma stilində hazırlandığı üçün bəzi tarixi məqamlara işıq salmaq naminə geniş şəkildə şərh edirik.

"Keçmişini unudanın gələcəyi olmaz" müdrik kəlamına istinad olunan kitabın "Azərbaycan ədliyyəsinin tarixi" adlanan birinci hissəsinin üç fəsildən ibarət olması xalqımızın qədim dövlətçilik ənənələrinə və tarixinə malik olduğunu təsdiq edən təqdirəlayiq haldır. "Azərbaycan ədliyyəsi - qədim dövrlərdən ilk demokratik respublikanın yaranmasınadək" adlanan birinci fəsildə e.ə. birinci minilliyin əvvəllərində Azərbaycan ərazisində yaranmış ilk dövlətlərdən olan Mannada ali məhkəmə hakimiyyətinin mövcudluğundan danışılır. Daha sonra Midiya, Atropatena və Albaniyada müasir məhkəmə hakimiyyətinə xas olan hakimlərin yüksək statusa malik olması, məhkəmə proseslərində iddiaçıların, cavabdehlərin, şahidlərin və müdafiəçilərin iştirakı, proseslərin açıq çəkişmə prinsipi əsasında həyata keçirilməsinin mövcudluğu qeyd olunur. Eramızdan əvvəl təqribən IV-III əsrlərdə formalaşmış Qafqaz Albaniyasında mütləq hakimiyyətə malik olan hökmdar məhkəməyə də rəhbərlik edirdi, qayda-qanunların şərtləri isə mülki əyanlar və ruhanilər tərəfindən işlənib hazırlanırdı. VII əsrin sonu, VIII əsrin əvvəllərində Qafqaz Albaniyasında islam dini yayıldıqdan sonra müsəlman hüququnun əsas mənbələri olan Quran və Sünnədə dini-əxlaqi, sosial-etik normalarla yanaşı, müxtəlif məsələlər üzrə çoxsaylı hüquq normaları yer almışdı. Müsəlman hakimləri olan qazılar xəlifə tərəfindən təyin olunur və onun adından çıxış edirdilər.

Zaman keçdikcə ədalətli cəmiyyət barədə yeni-yeni ideyalar meydana gəlmiş; görkəmli mütəfəkkirlər öz əsərlərində ədaləti, əxlaqi, hüquq qaydalarına riayət etməyi, insanların şərəf və ləyaqətini müdafiə etməyi tərənnüm etmişlər.

Siyasi hüquq tariximizin və dünya mədəniyyətinin çox nadir incilərindən olan XI əsrin mühüm abidəsi - "Kitabi-Dədə Qorqud" eposunda xeyir və şər, cinayət və cəza, inandırma və məcburiyyət, ədalət məhkəməsi, hüquq və azadlıqların hər şeydən üstün tutulması ilə bağlı fikirlər, hüquqi düşüncələr öz əksini tapmışdır. Daha sonra kitabda xronoloji ardıcıllıqla Azərbaycanda mövcud olan müxtəlif dövlətlərin hökmranlığı dövründə ölkədə dövlət idarəetməsinin, qanunvericilik və mühakimə sisteminin təkmilləşməsindən, onların forma və fəaliyyətindən geniş bəhs edilir.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırlamaqla ədliyyə sahəsində də böyük dəyişikliklərə səbəb oldu. XX əsrin əvvəllərində regionda yaranmış mürəkkəb geosiyasi vəziyyətdə müsəlman Şərqində ilk demokratik respublikanın yaranması xalqımızın milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirərək onu müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadir olduğunu sübut etdi.

Oxuculara həmin dövr haqqında geniş məlumat təqdim olunan ikinci fəsildə 1918-ci il may ayının 28-də Tiflis şəhərində Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsinin fransızca mətninin fotosurəti və tərcüməsi də verilmişdir. Dövlət quruculuğu sahəsində ciddi tədbirlərin həyata keçirilməsi və Azərbaycan ədliyyəsinin şanlı tarixi də məhz Xalq Cümhuriyyətinin yaranması ilə başladı. Hüquq sisteminin fəaliyyətinə böyük əhəmiyyət verildiyindən Ədliyyə Nazirliyi ölkənin yaradılması ilə bir gündə təsis edildi. Anarxiyanın və daxili çəkişmələrin hökm sürdüyü dövrdə fəaliyyətə başlayan Ədliyyə Nazirliyi ilk növbədə ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpasına başladı. Vəsaitdə həmçinin Ədliyyə Nazirliyinin ilk binasının fotosu ilə yanaşı qeyd olunur ki, Ədliyyə Nazirliyi 1918-ci il sentyabrın 26-da Bakıda, məşhur milyonçu azər-

baycanlı Murtuza Muxtarovun XX əsrin əvvəllərində tikdirdiyi, öz arxitekturası ilə şəhərə gözəllik verən bugünkü Səadət Sarayının binasında fəaliyyətə başlamışdır.

1918 -ci il noyabr ayının 22-də Ədliyyə Nazirliyi Əsasnaməsinin təsdiq olunması ədliyyə sisteminin mühüm dövlət orqanı kimi formalaşmasında əsaslı rol oynadı. Məhz bu səbəbdən də xalqımızın ümummilli lideri Heydər Əliyevin 1 noyabr 2000-ci il tarixli sərəncamı ilə həmin gün Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən olundu və hər il təntənəli şəkildə qeyd edilir.

Azərbaycan Xalq Cümhuriyyətinin mühüm xidmətlərindən biri də dövlət dili olan Azərbaycan dilinin məhkəmələrdə tətbiqinin əhəmiyyətini nəzərə alaraq məhkəmə idarələrində iclasların yalnız Azərbaycan dilində aparılmasına başlanılması və işə Azərbaycan dilini bilən şəxslərin cəlb edilməsi üçün tədbirlərin görülməsi ilə bağlı idi.

Sovet dövrünün ilk illərində Azərbaycan ədliyyəsinin fəaliyyətinə həsr olunan 3-cü fəsil də məlumatlılıq baxımından çox zəngindir. Qeyd olunur ki, ədliyyə sistemində sovetlər birliyinin mahiyyətinə uyğun olan kütləvi dəyişikliklər edilməklə nazirliyin adı da dəyişdirilərək Xalq Ədliyyə Komissarlığı adlandırıldı.

1920-1930-cu illərdə qəbul olunmuş yeni əsasnamələrdə Komissarlığın səlahiyyətləri genişləndirildi, xalq iclaslarının ədalət mühakiməsinin həyata keçirilməsində iştirakının mühüm əhəmiyyəti nəzərə alınaraq onların sovet qanunvericiliyinin mənimsənilməsi, tərkibinin yaxşılaşdırılması və sairlə bağlı tədbirlər həyata keçirildi. 1930-cu ildə isə sovet aparatının sadələşdirilməsi və saxlanması xərclərinin azaldılması məqsədilə Xalq Ədliyyə Komissarlığı (XƏK) ləğv edilərək onun funksiyaları Ali Məhkəməyə, prokurorluğa və digər orqanlara verildi. Bu sahədə boşluğa səbəb olmaqla idarəçilikdə ciddi problemlər yarandığından 1933-cü ildə XƏK yenidən təşkil olundu. 1946-cı ildə Xalq Komissarlıqları nazirliklərə çevrildiyindən XƏK də Ədliyyə Nazirliyi adlandırılsa da, 1959-cu ildə yenidən ləğv olundu. Azərbaycan ədliyyəsinin fəaliyyətinin hamar olmaması, bu orqanların ləğv edilib yenidən yaradılması ədliyyə sisteminin sabit struktura malik olmasına və işinin təşkilinə ciddi zərbə vurmuşdu.

Ciddi tədqiqat araşdırması olan kitabın "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Ədliyyəsi" adlanan ikinci hissəsi "Azərbaycan ədliyyəsi XX əsrin 70-80-ci illərində" və "Azərbaycan ədliyyəsi müstəqillik illərində və müasir hüquq sisteminin formalaşması" kimi iki fəsildən ibarətdir. I fəsildə qeyd olunur ki, bugünkü dövlət müstəqilliyinin möhkəm təməlinin qoyulduğu 1970-1980-ci illərdə sosial-iqtisadi, ictimai-mədəni və digər sahələrdə olduğu kimi, ədliyyə-hüquq sahəsində də əsaslı dönüş yarandı. Doğma xalqının böyük təəssübkeşi olan, özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" - deyərək qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirdi, cinayətkarlığa, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirdi. Məhz həmin dövrdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1970-ci il 27 oktyabr tarixli Fərmanı ilə Ədliyyə Nazirliyi yenidən təsis olundu.

Ölkədə ədliyyə işinin səmərəli təşkili, məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı çox mühüm qanun və qərarlar qəbul olundu. Həmin sənədlərin təhlili ilə yanaşı fotosurətlərinin orijinalda təqdim olunması kitabın əsas məziyyətlərindən biridir.

Qəbul olunmuş yeni Qanunlara və qərarlara uyğun olaraq Ədliyyə Nazirliyi məhkəmələrin təşkili və strukturunun müəyyənləşdirilməsi, hakimlər və xalq iclasçılarının sayı və seçkilərin keçirilməsi məsələlərinə dair təkliflər hazırlayır, məhkəmələrin işlərini yoxlayır, məhkəmə təcrübəsini öyrənərək ümumiləşdirirdi. Bir sözlə, ötən əsrin 70-80-ci illərində Azərbaycan ədliyyəsinin işlək bir təsisat kimi formalaşaraq inkişaf etməsinin, ədliyyə işinin təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəruri olan zəmin yaranmışdı.

Xalqımızın dövlət müstəqilliyini yenidən bərpa etməsinin

ilk illərinə həsr olunan ikinci fəsildə öncə ölkədəki ümumi vəziyyət qısa təsvir olunur. Xalqın sonsuz rəğbətlə sevdiyi görkəmli dövlət xadimi, dünyamiqyaslı siyasətçi Heydər Əliyevin Bakıya qayıdaraq, Azərbaycana rəhbərliyi, əslində isə xilaskarlıq missiyasını öz üzərinə götürməsi sayəsində Azərbaycanı onu gözləyən dəhşətli bəlalardan qurtardı. Müdrikliyi, uzaqgörənliyi, dəmir iradəsi və qətiyyəti ilə ulu öndər milli dövlətçiliyi qorudu, gənc müstəqil respublikanı dünyada tanıtmaqla onun sonrakı onilliklər üçün inkişaf kursunu da müəyyən etdi.

Respublikada demokratik hüquqi dövlət quruculuğu prosesinə başlayan dahi lider hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Əsas Qanunun qəbulu ölkədə bütün sahələrdə, o cümlədən hüquqi islahatların hərtərəfli və kompleks həyata keçirilməsinə rəvac verdi.

Məhkəmə hakimiyyətinin nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, habelə hazırlıqlı və peşəkar hakim korpusunun formalaşdırılması məqsədilə 1 dekabr 1998-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Məhkəmə-Hüquq Şurası yaradıldı və onun təşkilatı təminatının həyata keçirilməsi Ədliyyə Nazirliyinə tapşırıldı. Bütün dünyaya ölkəmizin demokratik hüquqi dövlət quruculuğu yolunu seçdiyini və bu yoldan dönməyəcəyini bəyan edən Heydər Əliyev tərəfindən təsdiq olunan Əsasnamələrə və müvafiq qanunvericiliyə uyğun olaraq məhkəmələr üzərində hər cür nəzarət ləğv olundu. Ədliyyə Nazirliyinə insan haqlarının qorunması ilə bağlı müstəsna səlahiyyətlərin verilməsi məhkəmə hakimiyyətinin cəmiyyətdə nüfuzunu tam yeni səviyyəyə qaldırdı. İnsanlarda məhkəmələrin keçmiş sovetlər birliyindəki kimi "cəza orqanı" deyil, hüquq müdafiə vasitəsi olması düşüncəsi formalaşmağa başladı.

Qeyd edək ki, 1999-cu ildə ilk dəfə yerli özünüidarə orqanları - bələdiyyələrin formalaşması və onlara inzibati nəzarətin həyata keçirilməsinin də Ədliyyə Nazirliyinə tapşırılması ulu öndərin həmin Nazirliyə verdiyi xüsusi önəmlə bağlı idi.

Əsərdə Ədliyyə Nazirliyinin beynəlxalq əlaqələrinə də geniş yer verilib. Qeyd olunur ki, həmin dövrdə beynəlxalq hüquqi yardımın müxtəlif sahələri üzrə ikitərəfli və çoxtərəfli formatda, habelə mötəbər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsinin, sanballı müqavilə-hüquq bazasının formalaşdırılmasının əsası qoyuldu. Ulu öndərin özünün də iştirakı ilə müxtəlif ölkələrin Ədliyyə nazirlikləri, BMT-nin müvafiq təşkilatları ilə ikitərəfli Əməkdaşlıq haqqında saziş və protokolların imzalanması mərasimindən fotoların təqdimi oxucuda daha dolğun təəssürat yaradır. Xüsusilə vurğulanır ki, beynəlxalq hüquq əməkdaşlığı sahəsində həyata keçirilən ardıcıl tədbirlər, səmərəli təcrübə mübadiləsi ədliyyə fəaliyyətinin təkmilləşdirilməsində mühüm rol oynadı.

Bu fəsilin sonunda tam əminliklə və haqlı olaraq qeyd olunur ki, müstəqil Azərbaycan dövlətinin qurucusu olan Heydər Əliyev həm də müasir hüquq və ədliyyə sisteminin banisidir.

Tədqiqatın "Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sisteminin inkişafı" adlanan sonuncu - üçüncü hissəsində cənab İlham Əliyevin ölkə Prezidenti vəzifəsində fəaliyyətə başladığı ilk günlərindən ədliyyə və məhkəmə sisteminin inkişafına, fəaliyyətinin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə xüsusi diqqətindən, bu sahədə həyata keçirilən tədbirlərdən geniş şəkildə danışılır. Üçüncü hissənin "Məhkəmə sisteminin müasirləşdirilməsi" adlanan birinci fəslində qeyd olunur ki, qısa müddət ərzində sahəyə aid bir sıra Qanunlara əsaslı dəyişikliklər və əlavələrlə yanaşı tam yeni Qanun layihələri hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirildikdən sonra qəbul olunmuşdur. Yeni qanunvericiliyə uyğun olaraq ilk dəfə hakimlərin müddətsiz təyinatı təsbit edilmiş, korrupsiya hallarının qarşısının alınması məqsədilə hakimlər tərəfindən vətəndaşların qəbulu qadağan edilmişdir.

Məhkəmə islahatlarının əsas məziyyətlərindən biri - məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan və hakimiyyətin bütün qollarının təmsil olunduğu Məhkəmə-Hüquq Şurasının formalaşdırılmasıdır.

Azərbaycan Respublikası

Prezidentinin xüsusi əhəmiyyət kəsb edən Fərman, Sərəncamları və Əsasnamələrin surətinin kitabda verilməsi əyanilik baxımından mühüm özəllik yaratmaqla mötəbər mənbə funksiyasını təmin edir. Həmin sənədlərdən biri də dövlət başçısının məhkəmə sisteminin müasirləşdirilməsi barədə 19 yanvar 2006-cı il tarixli Fərmanıdır. Sənədə əsasən insanların məhkəmələrə əlçatanlığının yaxşılaşdırılması məqsədilə respublika apelyasiya və iqtisad məhkəmələrinin əvəzinə 6 regional apelyasiya, habelə əlavə 3 yerli iqtisad məhkəməsi təşkil edildi.

Ölkəmizin iqtisadi cəhətdən sürətlə inkişafı, mülki dövriyyənin genişlənməsi məhkəmələrdə baxılan mülki işlərin sayının bir neçə dəfə artmasına səbəb olmuşdur. Bu səbəbdən də dövlət başçısının Fərmanı ilə ancaq Bakı şəhərində fəaliyyət göstərən ağır cinayətlər məhkəməsinin əvəzində bölgələrdə yeni regional ağır cinayət məhkəmələri yaradılaraq onların sayı 5-ə çatdırıldı.

Məhkəmə sisteminin təkmilləşdirilməsində yeni nəsil hakim korpusunun formalaşdırılması müstəsna əhəmiyyət kəsb etdiyindən ölkəmizdə hakimliyə namizədlərin seçki prosesinin təkmilləşdirilməsinə daha dəqiq desək "Hakimlərin Seçki Komitəsi haqqında" Əsasnamənin təsdiqinə ciddi ehtiyac vardı. Məhz bu sənədin qəbulundan sonra şəffaflığın, obyektivliyin təmin olunması üçün hakimliyə namizədlərin seçim prosesi test imtahanı ilə keçirilir və bütün proses onlayn rejimdə canlı yayımlanır.

Kitabda qeyd olunur ki, ulu öndər Heydər Əliyevin yaratdığı möhkəm bünövrə üzərində inkişaf edən məhkəmə islahatlarının müsbət nəticələri, yeni infrastrukturun yaradılması və s. nüfuzlu beynəlxalq təşkilatların da marağına səbəb olmuşdur. Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyanın (CEPEJ) ekspertləri Azərbaycanda formalaşmış institusional qurumların fəaliyyətinin və hakimlərin seçiminin mütərəqqi Avropa standartlarına cavab verdiyini vurğulamışdır. CEPEJ-in rəhbərliyi ölkəmizdə demokratik hüquqi dövlət quruculuğunu və məhkəmə islahatlarını təqdir etdiyindən 2014-cü ildə təşkilatın plenar iclasını ilk dəfə olaraq Strasburqdan kənarda, məhz Bakıda keçirmişdir.

"Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamı bu sahədə inqilabi təkamülün əsasını qoydu. Yeni sistem şəffaflıq və operativliyi təmin etməklə insanlara məhkəməyə gəlmədən, elektron formada müraciət etmək, məhkəmə proseslərini audio-video və digər texniki vasitələrlə qeydə almaq, proses iştirakçıları üçün məhkəmənin gedişi, qərarlar və onların icra vəziyyəti və s. məlumatları əks etdirən elektron "şəxsi kabinetə" malik olmaq, proses barədə məlumatları elektron daşıyıcıda dərhal almaq imkanı yaratmışdır.

Bəllidir ki, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun müasirləşdirilməsinin əhəmiyyəti böyükdür. Bu səbəbdən də bütün məhkəmələrdə əsaslı təmir və yenidənqurma işləri aparılmış, iş şəraiti müasir tələblərə uyğunlaşdırılmış, çoxsaylı yeni məhkəmə binaları istifadəyə verilmişdir. Kitabda açılışında ölkə Prezidentinin də iştirak etdiyi yeni məhkəmə bina və komplekslərinin şəkillərinin təqdim olunması deyilən fikirləri təsdiq edərək oxucuya dolğun bilik verməklə göz yaddaşı ilə də əxz olunan məlumatı möhkəmləndirir.

Üçüncü hissənin birinci fəsli təhlil olunan dövrdə görülən işlərin yekunu olaraq belə bir fikirlə yekunlaşır: Möhkəm dövlətçilik təməli üzərində formalaşmış Azərbaycanın məhkəmə və hüquq sistemində dövlət başçısının güclü siyasi iradəsi ilə həyata keçirilən ardıcıl islahatlar nəticəsində tam müasirləşərək təkmil bir struktura çevrilmişdir.

"Ədliyyə sistemi davamlı inkişaf yolunda" adlı ikinci fəsil ədliyyə sahəsində dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsinə, strukturun daha optimal şəkildə təşkil edilməsinə zəmin yaradan və bu sahənin fəaliyyətini tənzimləyən "yol xəritəsi"nin mühüm əhəmiyyətinə həsr edilmişdir. Dövlət başçısının Ədliyyə orqanlarının inkişafı haqqında, "Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Fərmanları və "Ədliyyə

orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu ədliyyə fəaliyyətinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsini, bu sahədə müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsini, yeni nəsil hüquqşünasların formalaşdırılmasını şərtləndirir. Ədliyyə Nazirliyinin ölkədə həyata keçirdiyi layihələr və icra etdiyi işlər, xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla hüquqi yardım və əməkdaşlıq haqqında müqavilələrin bağlanmasını və onların icrasını təmin etməsi kimi funksiyalar sadalanmaqla münasib fotolarda təqdim olunur.

Həmçinin, Ədliyyə Nazirliyinin müvafiq alt qurumlarında aparılan məqsədyönlü işlərdən, yeni müasir laboratoriyalardan tibbi xidmətdən, bu sahədə Azərbaycanın müsbət təcrübəsinin öyrənilməsinə dair xarici dövlətlərin nümayəndələri üçün beynəlxalq seminarlardan, əfv və amnistiya qərarlarının uğurlu iclasından və s. əyani söhbət açılır.

Ədliyyə Nazirliyi tərəfindən hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, beynəlxalq hüquqi yardımın yaxşılaşdırılması da xüsusi diqqət mərkəzində saxlanılmış, bu məqsədlə nazirlik tərəfindən dünyanın bir çox dövlətlərinin ədliyyə qurumları ilə imzalanmış əməkdaşlıq haqqında saziş və anlaşma memorandumların sayı 32-yə çatdırılmışdır. İmzalanma mərasimlərinin tarix göstərilməklə uyğun şəkillərlə verilməsi də kitabın özəlliklərindən biridir.

Ölkəmizin yeni qlobal çağırışlara uyğun mədəni inkişafının təmin olunmasında, humanizm, tolerantlıq ideya və prinsiplərinin uğurla inkişaf etdirilməsində, dünyamiqyaslı mühüm ictimai-mədəni tədbirlərə, mötəbər beynəlxalq forumlara ev sahibliyi etməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti kitabda xüsusilə qeyd olunur.

İkinci fəslin sonunda Ədliyyə nazirinin 2018-ci ilin fevralında Cocuq Mərcanlı kəndində sakinlərlə görüşündən, kəndin azad olunmasından yazılır və qeyd olunur - "Azərbaycan Ordusunun bu zəfərləri, uğurlu əks-hücum əməliyyatları ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında sıx birləşən bütün xalqımızda böyük ruh yüksəkliyi doğurmaqla torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə qəti əminlik yaradır" - Bu arzu və inam balaca uşaqların da, yaşlı insanların da, gənc nəslin nümayəndələrinin də, hamımızın yaşam tərzinə çevrilmişdi. Bu gün bizim arzularımız çin olub. Bu, hər birimiz üçün böyük xoşbəxtlikdir.

İndi bizim ölkəmiz üçün yeni dövr başlayır. Biz tam əminik ki, 100 illiyini böyük ruh yüksəkliyi ilə qeyd edən ədliyyə işçiləri ulu öndər Heydər Əliyevin müəyyən etdiyi və uğurla həyata keçirilən dövlətçilik amallarına daim sadiq olaraq ölkəmizin daha da qüdrətlənməsi və demokratik hüquqi dövlət quruculuğu işində möhtərəm Prezidentimiz İlham Əliyevə yardımçı olmağı bu dövrdə də özlərinin vəzifə və vətəndaşlıq borcu sayacaqlar.

Kitaba iki bölmə də - "Azərbaycan ədliyyəsi: 100 ilin əlamətdar anları" və "Azərbaycan ədliyyə nazirləri" əlavə olunmuşdur. Birinci bölmədə əlamətdar yubileyin təntənəli və geniş qeyd edilməsi məqsədilə həyata keçirilən silsilə tədbirlərdən söhbət açılır.

İkinci bölmədə isə ötən dövr ərzində ədliyyə naziri işləyənlərin tərcümeyi-halları şəkilləri ilə verilmişdir. Bu, kitabın ədliyyə tarixi ilə maraqlananlar, tələbələr və tədqiqatçılar üçün mötəbər mənbə olduğunu təsdiq edir.

Kitabın tərtibat və dizayn baxımından zövqlə ərsəyə gəlməsində redaksiya qrupunun üzvləri Elçin Qasımovun və Cavid Hüseynovun əməyi də xüsusi təqdirəlayiqdir.

Azərbaycan ədliyyəsinin keçmişini, qət edilmiş yolu öyrənmək üçün faydalı və dəyərli vəsait olan bu kitabda ədliyyə tariximiz mükəmməl və müfəssəl halda araşdırıldığından məhkəmə-hüquq sisteminə sanballı töhfədir. Zəngin illüstrasiya materialları ilə oxunaqlı olan bu kitab ali məktəblərin uyğun ixtisas tələbələri, magistrantlar üçün dəyərli dərs vəsaiti, eyni zamanda bu sahədə tədqiqat işləri aparan gənc mütəxəssislərə, araşdırmaçılara da əvəzsiz və faydalı mənbədir.

**H.Musayev**
**“Respublika” qəzeti**

# Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq səmərə verir

**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sabitliyin, qanunçuluğun və təhlükəsizliyin təmin olunması, xüsusilə cinayətkarlığın qarşısının alınması üzrə önəmli tədbirlər görülür, mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə görə, Azərbaycan dünyada qabaqcıl dövlətlərdəndir və bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir.**

Ədliyyə Nazirliyi tərəfindən dünyanın 33 ölkəsi ilə hüquqi sahədə ikitərəfli sazişlər üzrə, Avropa, habelə MDB çərçivəsində çoxtərəfli konvensiyalar, eləcə də digər qitələrin ölkələri ilə 40-dan çox ikitərəfli müqavilələr üzrə ekstradisiya, cinayət işləri üzrə hüquqi yardım və digər sahələrdə səmərəli əməkdaşlıq həyata keçirilir.

Cari ildə COVID-19 qlobal pandemiyası ilə əlaqədar ölkələrə giriş-çıxışa məhdudiyyətlərin tətbiqi, kommunikasiyanın çətinləşməsi ekstradisiya sahəsində rəsmi sənədlərin əsllərinin çatdırılmasında problemlər yaradır.

Bununla əlaqədar Ədliyyə Nazirliyi tərəfindən xarici həmkarlarla məsləhətləşmələr aparılaraq ekstradisiya sorğularının elektron qaydada qəbul olunması və qısa müddətdə baxılması barədə razılığa gəlinib.

Ekstradisiya məsələsinə baxılarkən, həmçinin sorğu olunan şəxslərin insan hüquqlarının qorunmasına, penitensiar müəssisələrdə saxlanma şəraitinə və tibbi təminatına xüsusi diqqət yetirilir, bəzi hallarda isə bu sahədə vəziyyətlə yerində tanış olunur.

Dövlətimizin daim diqqətdə saxladığı penitensiar sahədə aparılan islahatların uğurlu nəticəsidir ki, ötən dövrdə bir sıra qabaqcıl Avropa dövlətləri bu sahədə ölkəmizdəki vəziyyəti təqdir edərək ekstradisiya ilə bağlı müsbət qərarlar qəbul ediblər.

Təkcə bu il ərzində beynəlxalq axtarışda olan adam oğurluğu, dələduzluq və rəsmi sənədlərin saxtalaşdırılması kimi cinayət əməllərində təqsirləndirilən şəxslərin Almaniya, Bosniya və Herseqovina, Türkiyə, Əlcəzair və s. ölkələrdən Ədliyyə Nazirliyinin əməkdaşlarının müşayiəti ilə ölkəmizə ekstradisiya edilməsi təmin olunub.

Bu günlərdə isə Cinayət Məcəlləsinin 263.3-cü (iki şəxsin ölümünə səbəb olmaqla yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) maddəsi ilə təqsirləndirilərək beynəlxalq axtarışda olan Azərbaycan vətəndaşının Almaniyadan ekstradisiyasına nail olunaraq, o, nazirlik tərəfindən ölkəmizə gətirilib.

Cinayətkar şəxslər Azərbaycana gətirilərkən tranzit dövlətlərin razılığının alınması üçün nazirlik tərəfindən qısa müddətdə zəruri tədbirlər görülür. Bu baxımdan xüsusi qeyd olunmalıdır ki, qardaş Türkiyə tərəfindən ölkəmizə daim böyük dəstək göstərilir.

Ümumilikdə isə ötən 5 il ərzində 200 nəfərədək cinayətkar şəxslərin Azərbaycana ekstradisiyası təmin olunub.

Bununla da cəzanın labüdlüyü prinsipi təmin edilməklə cinayətkarların özlərini heç yerdə azad və təhlükəsizlikdə hiss etmələrinin qarşısı alınır.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

# Azərbaycan Notariat Palatasında

**Azərbaycan Notariat Palatasının videoformatda növbəti ümumi yığıncağı keçirilib.**

Yığıncaqda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan hərtərəfli islahatlar çərçivəsində notariat institutunun inkişafı, bu sahədə fəaliyyətin müasir innovasiyalar tətbiq olunmaqla təkmilləşdirilməsi qeyd edilib.

Notariat Palatası tərəfindən Ədliyyə Nazirliyinin dəstəyi ilə görülmüş işlər, o cümlədən notariat ofislərində çalışan 100-dən artıq əməkdaşın təlimlərə cəlb edilməsi, Beynəlxalq Notariat İttifaqı ilə səmərəli əlaqələr qurularaq mütərəqqi xarici təcrübələrin öyrənilməsi və nizamnaməsinə uyğun olaraq həyata keçirilən digər tədbirlər barədə İdarə




Heyətinin sədri Hüseyn Məmmədov hesabat verib.

Müşahidə Şurasının sədri, nazirliyin Qeydiyyat və notariat baş idarəsinin rəisi İlqar Məmmədov notariat sahəsində qarşıda duran vəzifələr barədə çıxış edib.

Tədbirdə Palatanın fəaliyyətinin səmərəliliyinin artırılmasına dair notariusların çıxışları dinlənilib, bununla bağlı qurumun nizamnaməsinə bəzi dəyişikliklər edilib.

Sonra Azərbaycan Notariat Palatasının yeni yaradılmış www.aznotary.az internet saytının təqdimatı keçirilib.

# Ədliyyə Akademiyasında ilkin hazırlıq kursunu bitirmiş mediatorların iştirakı ilə tədbir keçirilib

**Ədliyyə Akademiyasında ilkin hazırlıq kursunu müvəffəqiyyətlə bitirmiş mediatorların iştirakı ilə videokonfrans formatında tədbir keçirilib.**

Tədbirdə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Avropa İttifaqının Azərbaycandakı səfiri Kestutis Yankauskas və Mediasiya Şurasının İdarə Heyətinin sədri vəzifəsini icra edən Ruslan Mirzəyev çıxış ediblər.

Natiqlər mediasiya institutunun tətbiqindən, bu sahədə beynəlxalq təcrübədən bəhs edib, ilk mediatorların qarşısında duran vəzifələrdən danışıb, onlara uğurlu fəaliyyət arzulayıblar.

Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində mübahisələrin məhkəmədən kənar həllində, məhkəmələrin iş yükünün azaldılmasında mühüm vasitə olan mediasiyanın tətbiqi üzrə önəmli addımlar atılıb, o cümlədən "Mediasiya haqqında Qanun" qəbul edilib, həmin




Qanuna və dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 3 aprel 2019-cu il tarixli Fərmanına uyğun olaraq Mediasiya Şurası yaradılıb. Bu sahədə Avropa İttifaqı ilə birgə həyata keçirilən layihə çərçivəsində mediasiya üzrə təlimçilər hazırlanıb, Ədliyyə Akademiyası mediasiya təlimi qurumu kimi Şuraya üzv qəbul olunub və beynəlxalq ekspertlər cəlb olunmaqla mübahisələrin alternativ həlli üzrə təlimçilərinin təlimi təşkil edilib.

Akademiya tərəfindən "Mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim Qaydası"na uyğun olaraq mediator olmaq istəyən şəxslərin ilkin hazırlıq kurslarına başlanılıb. Kurslarda beynəlxalq ekspertlər Ruslan Mirzəyev və Adi Gavrilla tərəfindən mübahisə nəzəriyyəsi, mübahisənin təhlili və dinamikası, mediasiyanın əsasları, mübahisələrin alternativ həlli, mediasiya prosesi və mərhələləri, mediasiyanın əsas prinsipləri (konfidensiallıq, bitərəflik/müstəqillik, qərəzsizlik, könüllülük) və digər aktual mövzular tədris olunub, praktiki məşğələlər keçirilib.

Kursun yekunu üzrə müvafiq imtahan keçirilərək 49 nəfər uğur qazanıb və onlar "Mediatorların ilkin hazırlıq kursu"nu bitirməklə bağlı sertifikata layiq görülüblər.

Ədliyyə Akademiyası tərəfindən mediator olmaq istəyən şəxslərin sənədlərinin qəbulu davam etdirilir və Avropa İttifaqının dəstəyi ilə müraciət etmiş növbəti qrup namizədlərin təlimlərə cəlb olunması, habelə respublikamızın bütün regionlarında mediasiya üçün lazımi şəraitin yaradılması nəzərdə tutulur.

# Ədliyyə fəaliyyətinə dair onlayn qaydada ictimai müzakirələr keçirilib

## ◆ Məhkəmə qərarlarının icrası işinin təşkili

**Sentyabrın 4-də Ədliyyə Nazirliyi tərəfindən "Məhkəmə qərarlarının icrası işinin təşkili" mövzusunda onlayn qaydada ictimai müzakirə təşkil olunub.**




Tədbirdə iştirak edən nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin

rəisi Aynur Sabitova, İcra baş idarəsinin rəis müavini Fərid Əfəndiyev və idarənin kredit borcları şöbəsinin rəis əvəzi Emin Veysov icra xidmətinin əsas fəaliyyət istiqamətləri, bu sahədəki yeniliklər barədə məlumat veriblər.

Qeyd edilib ki, Baş idarə və onun yerli icra qurumları məhkəmələrin mülki, iqtisadi mübahisələrə və inzibati xətalara dair işlər üzrə qərarlarının, mülki iddianın və vurulmuş ziyanın ödənilməsi hissəsində hökmlərin, məhkəmə əmrlərinin icrasını, qanunvericiliklə icrası icra məmurlarına həvalə edilmiş digər sənədlərin icrasını təmin edir. Bildirilib ki, icra məmurlarının fəaliyyəti "İcra haqqında" Qanunla tənzimlənir ki, ötən müddətdə ona 130-dək dəyişiklik edilib. Hazırda Azərbaycanda 600-dək icra məmuru fəaliyyət göstərir.

Nazirliyin mühüm fəaliyyət istiqamətlərindən olan məhkəmə qərarlarının icrası sahəsində iş həcmi ilbəil artır. Bu ilin birinci yarısının hesabatına əsasən, İcra baş idarəsinin icraatında 710 mindən çox iş olub.

Tədbirdə Prezident İlham Əliyevin ötən ilin aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının ijrası çərçivəsində alternativ ijra mexanizmlərinin tətbiqi üzrə görülən işlərdən danışılıb.

Qeyd olunub ki, hazırda icraatda olan işlərin böyük əksəriyyəti kredit borcları ilə bağlıdır. Bu növ məhkəmə qərarlarının icrasında səmərəliliyin və operativliyin artırılması məqsədilə kredit borcları şöbəsi yaradılıb. Şöbə qarşıya qoyulan tapşırıqların icrası istiqamətində mühüm məqsədlərə nail olub.

Onlayn ijtimai müzakirədə elektron ijra, kredit borjları, aliment işləri üzrə məhkəmə qərarlarının ijrası və ijra xidmətinin fəaliyyəti ilə bağlı digər məsələlərə toxunulub, sosial şəbəkə istifadəçilərinin sualları javablandırılıb.

## ◆ Ədliyyə Akademiyasının fəaliyyəti

**Əhalinin hüquqi maarifləndirilməsi çərçivəsində sentyabrın 9-da Ədliyyə Nazirliyi tərəfindən "Ədliyyə Akademiyasının fəaliyyəti" mövzusunda onlayn qaydada ictimai müzakirə keçirilib.**




Tədbirdə iştirak edən Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov və Akademiyanın tədris şöbəsinin rəisi Mehriban Əfəndizadə qurumun fəaliyyət istiqamətləri barədə məlumat verib.

Bildirilib ki, Akademiyanın fəaliyyətinin əsas məqsədi ədliyyə, prokurorluq və məhkəmə orqanları, vəkillik fəaliyyəti üçün ixtisaslı kadrların hazırlanması, ali hüquq təhsili olmayan ədliyyə işçilərinin hüquqi hazırlığının təmin edilməsi, ədliyyə və məhkəmə orqanlarının, vəkilliyin inkişafı naminə konseptual problemlərin tədqiq edilməsi, hüquq elminin müxtəlif sahələri üzrə fundamental və tətbiqi elmi araşdırmaların aparılmasıdır.

Həmçinin, Akademiyanın pandemiya dövründə fəaliyyətindən bəhs olunaraq distant formada peşəyə buraxılış, ixtisasartırma təlimləri və kursların təşkil olunduğu bildirilib, hər il beş minə yaxın müdavimin bu kurslara cəlb edildiyi qeyd olunub.

Məlumat verilib ki, Akademiya dövlət və qeyri-dövlət strukturları ilə sıx əməkdaşlıq edir. Ədliyyə və prokurorluq orqanlarına, vəkilliyə, həmçinin hakimliyə namizədlər Akademiyada təlim keçirlər.

İjtimai müzakirədə Akademiyada hüquq fakültələrindən fərqli olaraq tədris olunan mövzuların praktiki əhəmiyyətindən danışılıb, tədrisə təlimçi qismində praktiki işçilərin - hakimlərin, prokurorların, vəkillərin cəlb edildiyi bildirilib, ixtisasartırma sahəsində tədrisin təşkilində beynəlxalq təcrübənin öyrənilməsinə xüsusi önəm verildiyi qeyd olunub, Avropa Şurası və Avropa İttifaqı ilə birgə Akademiyanın potensialının artırılması ilə bağlı bir sıra layihələrin həyata keçirildiyi diqqətə çatdırılıb.

Eyni zamanda, pandemiya dövründə Akademiyada elektron tədrisin aktuallaşdığı qeyd olunaraq Beynəlxalq Miqrasiya Təşkilatının köməyi ilə yaradılmış elektron tədris platformasının əhəmiyyəti barədə məlumat verilib. Platformaya müxtəlif mövzularda ödənişsiz videodərslər yerləşdirilir. Pandemiya dövründə 500-dən çox dinləyici icbari və ixtisasartırma kurslarına məhz distant formatda cəlb olunub.

O da qeyd olunub ki, Ədliyyə Akademiyasının tərkibindəki "Hüquqi təminat" bölməsi pulsuz hüquqi yardım göstərir. Bu bölməyə daxil olan vətəndaş müraciətləri və onların həllində Akademiyanın köməyi böyük əhəmiyyət kəsb edir. Belə ki, Akademiya bir tərəfdən nəzəri bilikləri təcrübə ilə zənginləşdirir, digər tərəfdən əhalinin sosial cəhətdən zəif təbəqəsi üçün pulsuz hüquqi yardım göstərərək cəmiyyət üçün faydalı fəaliyyət nümayiş etdirir. Hazırda Akademiya Vəkillər Kollegiyası ilə birgə hüquq fakültəsinin tələbələri cəlb olunmaqla əhaliyə ödənişsiz hüquqi yardım göstərir. Artıq 2013-cü ildən etibarən 3 min vətəndaş ödənişsiz hüquqi yardımla təmin olunub. Bu il isə 200 nəfərə hüquqi yardım, o cümlədən distant şəkildə göstərilib.

Tədbirdə Akademiyanın fəaliyyəti ilə bağlı maraq doğuran digər məsələlərə toxunulub, sosial şəbəkə istifadəçilərinin suallarına aydınlıq gətirilib.

## Məhkəməyə elektron müraciət və sahibkarlara açılan imkanlar

**Sentyabrın 10-da Ədliyyə Nazirliyi tərəfindən təşkil edilən növbəti onlayn ictimai müzakirə "Məhkəməyə elektron müraciət və sahibkarlara açılan imkanlar" mövzusuna həsr olunub.**

Tədbirdə iştirak edən "Elektron məhkəmə" informasiya sistemi üzrə işçi qrupun üzvü Xəyyam Bayramov e-məhkəmə sisteminin fəaliyyəti və tətbiqinin üsünlükləri barədə məlumat verib.

Qeyd edilib ki, məhkəmələrin müasir İKT-lərlə təchizatı məhkəmə infrastrukturunun müasirləşdirilməsi ilə paralel aparılıb. Dövlət başçısının "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 2014-cü il 13 fevral tarixli Sərəncamı ölkəmizdə məhkəmə fəaliyyətinin elektronlaşdırılması sahəsində inqilabi dəyişikliyin əsasını qoyub. Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı isə "Elektron məhkəmə" informasiya sistemi ilə bağlı təşkilatı işlərin yekunlaşdırılmasına və onun funksionallığının artırılmasına yönəlib.

Bildirilib ki, "Elektron məhkəmə" informasiya sisteminin üstünlüyü məhkəmə hakimiyyətinin və ədalət mühakiməsinin işini asanlaşdır-

masıdır. Bu sistem vətəndaşın məhkəməyə müraciət hüququnun yaranmasından məhkəmə qərarının icrasının tamamlanmasınadək bütün prosesi əhatə edir. Sistemə daxil olan vahid məhkəmə portalı, məhkəmə prosesi iştirakçısının elektron kabineti, elektron icra, məhkəmə qərarının vahid bazası və digər sistemlər vətəndaşlara və hüquqi şəxslərə geniş imkanlar yaradır. Tətbiq olunan bu yeniliklər vətəndaşlara məhkəmələrə elektron qaydada müraciət etmək, sistemdə şəxsi kabinetə sahib olmaq, sənədləri elektron formatda ötürmək, məhkəmə işinin materialları ilə tanış olmaq, proseslər barədə məhkəməyə gəlmədən xəbər tutmaq, apellyasiya və kassasiya şikayətlərinin verilməsi kimi çoxsaylı imkanlar verir.

Vurğulanıb ki, e-məhkəmə sistemi sahibkarlar üçün məhkəmələrə əlçatanlığın asanlaşdırılmasına müsbət təsir edir. Son illər məhkəmə-hüquq sistemində aparılan islahatlar nəticəsində sahibkar və məhkəmə arasında kommersiya mübahisələri üzrə ünsiyyət və icraat tamamilə elektron müstəvidə tənzimlənib. Sahibkar "Elektron kabinet" vasitəsilə məhkəməyə getmədən iddia ərizəsinin və digər sənədlərin təqdim olunmasını, həmçinin alınmasını elektron qaydada həyata keçirə bilir. Bundan başqa, kiçik iddialar üzrə sadələşdirilmiş icraatın yaradılmasında yenilik var. Onun adi iddiadan fərqi odur ki, qeyd olunun icraatda mübahisə məbləği on min manatdan az olan iddialara məhkəmə tərəfindən yazılı, yəni işə tərəflərin təqdim etdiyi sənədlər və sübutlar əsasında 30 gün ərzində baxılmasıdır. Qeyd olunan yenilik sahibkarlara vaxta qənaət etmək və əlavə xərcin qarşısını almaq üçün yaradılan imkandır. Ümumiyyətlə, işlərin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə avtomatik bölgüsü onun keyfiyyətini və məhkəməyə inamı artırır.

Məlumat verilib ki, pandemiya dövründə tətbiq olunan yeniliklərdən biri distant məhkəmələrin mümkünlüyüdür. Belə ki, sahibkarlar məhkəməyə gəlmədən kompüterlərindən məhkəməyə qoşularaq mövqeyini bildirirlər. Əgər vətəndaşın məhkəmə qərarlarından şikayəti varsa, o, hər hansı ərizə ilə müraciət etdikdə, həmin şəxs elektron kabinetdən qeydiyyatdan keçməlidir. Sahibkarlar üçün qurumuna aid elektron imzanın olması da vacibdir. Elektron sistemin eyniləşdirmə üsullarından biri FİN və vergi ödəyicisinin eyniləşdirmə nömrələridir. Bu məlumatlar həmin elektron imzada saxlanılır. Bundan əlavə, vətəndaşlar "Elektron kabinetə" "ASAN loqin" vasitəsilə də daxil ola bilərlər. Lakin məhkəmə ilə elektron mübadilə üçün mütləq qaydada elektron imza əldə etmək lazımdır. Sistemə daxil olduqda həmin şəxsə və ya quruma aid məhkəmə işinin olub-olmaması avtomatik yoxlanılır. Əgər iş mövcuddursa, iddiaçının şəxsi kabinetində məlumatlar əks olunur. "Elektron kabinet"ə sahib olan şəxs məhkəmə işinə baxılması vəziyyətini həm SMS, həm də elektron poçtla öyrənə bilər. Onun əhəmiyyəti ondan ibarətdir ki, vətəndaş ona qarşı gələcəkdə qaldırılacaq iş barədə əvvəlcədən bildirişlər vasitəsilə məlumatlandırılır.

Diqqətə çatdırılıb ki, "Elektron icra" və "Elektron məhkəmə" informasiya sistemləri arasında inteqrasiya təmin olunub. Məhkəmə aktı icraya yönəldilibsə və "Elektron icra" informasiya sistemində əks olunubsa, həmin iş barədə məlumat elektron kabinetdəki icra işləri bölməsində əks edilir. Sahibkar və ya istənilən vətəndaş ona aid məhkəmə aktının icrasını oradan izləyə bilər.

Tədbirdə həmçinin, "Mobil elektron məhkəmə" tətbiqi və digər məsələlərə toxunulub, sosial şəbəkə istifadəçilərinin sualları ətraflı cavablandırılıb.

## Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi, habelə doğumun və ölümün qeydə alınması sahəsində fəaliyyətin təkmilləşdirilməsi, operativliyin və əlçatanlığın təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Doğumun və ölümün dövlət qeydiyyatı aşağıdakılar təmin edilməklə elektron qaydada həyata keçirilsin:

1.1. doğumun və ölümün qeydə alınması üçün elektron qaydada müraciət edilməsi;

1.2. doğum və ölüm faktını təsdiq edən sənədlərin elektron sənəd formasında tərtib edilməsi, doğumun və ölümün qeydə alınması ilə bağlı şəhadətnamələrin və arayışların elektron qaydada verilməsi;

1.3. doğumun və ölümün qeydə alınması ilə bağlı sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri İnformasiya Sisteminə və Dəfnlərin vahid dövlət reyestrinə daxil edilməsi (ötürülməsi), eləcə də Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə digər aidiyyəti dövlət informasiya ehtiyatlarına və sistemlərinə ötürülməsi;

1.4. doğumun və ölümün qeydə alınması sahəsində təhlillər aparılması, habelə məlumatların avtomatik ümumiləşdirilməsi və statistik hesabatların hazırlanması.

2. Bu Fərmanın 1.4-cü bəndinin icrası ilə əlaqədar bu Fərmanın 4-cü və 6-8-ci hissələrində nəzərdə tutulan dövlət orqanları (qurumları) aşağıdakı məlumatların EHİS vasitəsilə əldə olunmasını təmin etməlidirlər:

2.1. şəxsin doğumunun qeydə alınması ilə bağlı:

2.1.1. soyadı, adı, atasının adı;

2.1.2. cinsi;

2.1.3. doğum tarixi;

2.1.4. doğulduğu yer;

2.1.5. valideynlərinin soyadı, adı, atasının adı və milliyyəti;

2.2. şəxsin ölümünün qeydə alınması ilə bağlı:

2.2.1. soyadı, adı, atasının adı;

2.2.2. cinsi;

2.2.3. doğum tarixi;

2.2.4. ölüm səbəbi;

2.2.5. öldüyü yer;

2.2.6. öldüyü tarix.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Doğum haqqında elektron şəhadətnamə"nin və "Ölüm haqqında elektron şəhadətnamə"nin formasını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. doğum və ölüm faktını təsdiq edən sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların EHİS vasitəsilə ötürüləcəyi aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin siyahısını bir ay müddətində təsdiq etsin;

3.3. doğumun və ölümün elektron qaydada qeydə alınması ilə əlaqədar Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi doğumun və ölümün dövlət qeydiyyatının, bununla əlaqədar müvafiq şəhadətnamə və arayışların verilməsi ilə bağlı elektron xidmətlərin EHİS vasitəsilə göstərilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

5.1. doğumun və ölümün elektron qaydada qeydə alınması üçün "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS vasitəsilə əlaqələndirilməsini, o cümlədən məlumatların real vaxt rejimində EHİS vasitəsilə ötürülməsini təmin etsin;

5.2. doğumun və ölümün qeydə alınması ilə bağlı məlumatların avtomatik ümumiləşdirilməsini, habelə təhlillərin aparılmasını və statistik hesabatların hazırlanmasını təmin etsin;

5.3. bu Fərmanın icrası məqsədilə aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin mütəmadi qiymətləndirilməsini həyata keçirsin;

5.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi xaricdəki konsulluq idarələri tərəfindən doğumun və ölümün dövlət qeydiyyatı ilə bağlı sənədlərin elektron sənəd formasında tərtib edilməsini və həmin sənədlər üzrə məlumatların həmin gün Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri İnformasiya Sisteminə daxil olunmasını təmin etsin.

7. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi:

7.1. tibb müəssisələri tərəfindən doğum və ölüm faktını təsdiq edən sənədlərin elektron sənəd formasında tərtib edilməsini və həmin sənədlər üzrə məlumatların real vaxt rejimində EHİS vasitəsilə Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri İnformasiya Sisteminə ötürülməsini təmin etsinlər;

7.2. aidiyyəti üzrə tibb müəssisələrini və təcili yardım briqadalarını zəruri avadanlıqla və internetə çıxışla təmin etsinlər.

8. Yerli icra hakimiyyəti orqanları yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri (bundan sonra - yerli nümayəndəliklər) tərəfindən doğumun və ölümün dövlət qeydiyyatı ilə bağlı sənədlərin elektron sənəd formasında tərtib edilməsini, həmin sənədlər üzrə məlumatların, eləcə də bələdiyyələrlə birlikdə vətəndaşların dəfni barədə məlumatların həmin gün Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri İnformasiya Sisteminə və Dəfnlərin vahid dövlət reyestrinə daxil edilməsini, habelə yerli nümayəndəlikləri zəruri avadanlıqla və internetə çıxışla təmin etsinlər.

9. Bu Fərmanın 4-cü və 6-8-ci hissələrində nəzərdə tutulan dövlət orqanları (qurumları):

9.1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən həyata keçirilən qiymətləndirmənin nəticələrinə əsasən müvafiq informasiya ehtiyatlarını və sistemlərini təkmilləşdirsinlər;

9.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsinlər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 23 sentyabr 2020-ci il.*
*N 1160*

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan

Respublikasının Qanunvericilik Toplusu, 2001, N 1, maddə 1, N 3, maddə 131; 2002, N 12, maddə 693; 2003, N 1, maddə 16; 2004, N 1, maddə 10, N 4, maddə 199, N 5, maddə 321, N 8, maddə 597, N 11, maddə 884; 2005, N 6, maddələr 463, 475, N 10, maddə 874; 2006, N 5, maddə 386, N 6, maddə 479, N 8, maddə 657, N 11, maddə 927, N 12, maddələr 1005, 1014; 2007, N 2, maddə 83, N 5, maddələr 434, 436, N 7, maddə 711, N 10, maddə 934, N 11, maddələr 1049, 1074, 1078, N 12, maddələr 1213, 1219; 2008, N 3, maddə 153, N 5, maddələr 326, 341, N 6, maddələr 471, 481, N 7, maddə 602, N 8, maddə 699, N 10, maddə 881; 2009, N 2, maddə 54, N 5, maddə 311, N 6, maddə 403, N 10, maddə 771, N 11, maddə 878, N 12, maddə 964; 2010, N 4, maddə 276; 2011, N 2, maddə 71, N 3, maddə 165, N 6, maddə 463; 2012, N 5, maddə 413, N 10, maddə 945, N 11, maddə 1049; 2015, N 1, maddə 9, N 5, maddə 488, N 10, maddə 1100; 2016, N 8, maddə 1365, N 11, maddələr 1760, 1782, 1785; 2017, N 5, maddə 726, N 6, maddə 1054, N 7, maddə 1267, N 8, maddə 1513, N 11, maddə 1974, N 12 (I kitab), maddə 2192; 2018, N 2, maddələr 158, 159, N 3, maddə 392, N 5, maddələr 864, 880, N 6, maddə 1191, N 7 (I kitab), maddələr 1383, 1428; 2019, N 1, maddə 8; 2020, N 7, maddələr 828, 851, 856) aşağıdakı dəyişikliklər edilsin:

1. 17.2-ci maddədə "24-cü və 32-ci bəndlərində nəzərdə tutulmuş qaydada" sözləri "32-ci bəndinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

2. 17.3-cü maddə üzrə:

2.1. 1-ci hissədə "10" rəqəmləri "5" rəqəmi ilə əvəz edilsin;

2.2. 2-ci və 5-ci hissələr ləğv edilsin;

2.3. 3-cü hissədə "və ikinci hissələrində" sözləri "hissəsində" sözü ilə əvəz edilsin və həmin hissəyə "dövlət qulluqçusuna" sözlərindən sonra ", habelə təyin olunduğu inzibati vəzifənin təsnifatına uyğun ixtisas dərəcəsinə malik olmayan dövlət qulluqçusuna" sözləri əlavə edilsin.

3. aşağıdakı məzmunda 17.4-1 - 17.4-3-cü, 17.7-ci və 17.8-ci maddələr əlavə edilsin:

"17.4-1. Dövlət qulluqçusuna bu Qanunun 17.3-cü maddəsinin birinci hissəsində və 17.4-cü maddəsində müəyyən edilmiş tələblər nəzərə alınmadan daha yüksək (növbəti) ixtisas dərəcəsi aşağıdakı hallarda verilə bilər:

17.4-1.1. xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticəsinə uyğun olaraq qulluq funksiyalarını nümunəvi icra etdiyinə və işindəki yüksək nailiyyətlərinə görə;

17.4-1.2. yuxarı təsnifat dövlət qulluğu vəzifəsinə təyin edildikdə.

17.4-2. Bu Qanunun 17.4-1-ci maddəsində nəzərdə tutulmuş qaydada dövlət qulluqçusuna vaxtından əvvəl ixtisas dərəcəsi onun malik olduğu ixtisas dərəcəsində qulluq müddətinin ən azı yarısı keçdikdən sonra verilə bilər.

Bu Qanunun 17.4-1.1-ci maddəsində nəzərdə tutulmuş halda vaxtından əvvəl ixtisas dərəcəsinin verilməsinə dövlət qulluqçusunun dövlət qulluğunda qulluq etdiyi müddətdə yalnız bir dəfə yol verilir.

Bu Qanunun 17.4-1.2-ci maddəsi dövlət qulluqçusunun tutduğu inzibati vəzifədən bir təsnifat yuxarı inzibati vəzifəyə təyin edildiyi hallarda tətbiq oluna bilər.

17.4-3. Dövlət qulluqçularına ixtisas dərəcələri verilərkən onların xüsusi, hərbi və diplomatik rütbələri nəzərə alınır. Xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı olaraq uyğunlaşdırılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.";

"17.7. Bu Qanunun 25.2-ci maddəsinə əsasən intizam tənbehi qaydasında dövlət qulluqçusunun ixtisas dərəcəsi (bu Qanunun 17.2-ci maddəsinin birinci hissəsinə uyğun olaraq verilmiş ixtisas dərəcələri istisna olmaqla) bir pillə aşağı salına bilər. İntizam tənbehinin tətbiqi qaydasında dövlət qulluqçusunun ixtisas dərəcəsi təqvim ili ərzində yalnız bir dəfə aşağı salına bilər. Bu qaydada aşağı salınmış ixtisas dərəcəsində qulluq müddəti həmin intizam tənbehinin verilməsi haqqında əmrin imzalandığı gündən hesablanır.

17.8. İxtisas dərəcəsinin verilməsi, aşağı salınması və ixtisas dərəcəsindən məhrum etmə tətbiq olunarkən dövlət qulluqçusunun əmək kitabçasında və şəxsi işində müvafiq qeydlər edilir.".

4. 17.6-cı maddədən "və bu barədə şəxsin əmək kitabçasında müvafiq qeyd aparılır" söz-

ləri çıxarılsın.

5. 30-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 30-1. Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi

30-1.1. Dövlət qulluqçusunun cari fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması və həmin imkanlardan səmərəli istifadə edilməsi, dövlət qulluqçusunun peşə səriştəliyini artırmağa stimullaşdırılması və onun əlavə təhsilə ehtiyacının, habelə tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi məqsədilə hər təqvim ilinin sonunda inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilir.

30-1.2. Ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali-üçüncü təsnifatlarına uyğun dövlət qulluğu vəzifələrini tutan dövlət qulluqçularının, stajçı kimi və sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxslərin, habelə təqvim ilinin sonunadək müvafiq vəzifədə faktiki olaraq 6 aydan az müddətdə qulluq keçən dövlət qulluqçularının xidməti fəaliyyəti qiymətləndirilmir.

30-1.3. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi onun bilavasitə rəhbəri tərəfindən həyata keçirilir.

30-1.4. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qiymətləndirilmə forması əsasında aparılır. Qiymətləndirilmə forması dövlət qulluqçusunun təqvim ili ərzində yerinə yetirməli olduğu tapşırıqlar (hədəflər) və bu Qanunun 30-1.6-cı və 30-1.7-ci maddələrində göstərilən meyarlar, habelə əmək intizamı nəzərə alınmaqla tərtib edilir. Tapşırıqların (hədəflərin) və meyarların mühümlük dərəcəsi bilavasitə rəhbər tərəfindən müəyyən edilir.

30-1.5. Tapşırıqlar (hədəflər) dövlət qulluqçusunun il ərzində icra etməli olduğu mühüm işlərdir. Tapşırıqlar (hədəflər) dövlət qulluqçusunun qulluq keçdiyi struktur bölmənin fəaliyyət istiqamətlərinə uyğun və dövlət qulluqçusunun qulluq funksiyaları çərçivəsində olmalıdır. Tapşırıqların (hədəflərin) icra müddəti dəqiq müəyyən edilməli, ölçülə və yerinə yetirilə bilən olmalıdır. Hər bir tapşırığın (hədəfin) icra edilməsindən gözlənilən nəticə müəyyən edilməlidir.

30-1.6. Dövlət qulluqçusunun il ərzində xidməti fəaliyyəti aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

30-1.6.1. peşə bilikləri;

30-1.6.2. qulluq (xidməti) vəzifələrinə münasibəti;

30-1.6.3. təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı;

30-1.6.4. yaradıcılıq və təşəbbüskarlıq;

30-1.6.5. iş təcrübəsi və onu bölüşmə;

30-1.6.6. kollektivdə işləmək və ünsiyyət bacarığı.

30-1.7. Rəhbər vəzifə tutan dövlət qulluqçularının fəaliyyəti bu Qanunun 30-1.6-cı maddəsində göstərilənlərə əlavə olaraq aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

30-1.7.1. proqnozlaşdırma;

30-1.7.2. idarəetmə;

30-1.7.3. kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı;

30-1.7.4. komanda qurmaq bacarığı.

30-1.8. Dövlət qulluqçusunun xidməti fəaliyyəti aşağıdakı şəkildə qiymətləndirilir:

30-1.8.1. əla;

30-1.8.2. yaxşı;

30-1.8.3. kafi;

30-1.8.4. qeyri-kafi.

30-1.9. Dövlət qulluqçusunun xidməti fəaliyyətinə verilən yekun qiymətin 50 faizi tapşırıqların (hədəflərin) icra səviyyəsinin qiymətləndirilməsinə, 40 faizi meyarlar əsasında qiymətləndirilməyə, 10 faizi isə əmək intizamı əsasında qiymətləndirməyə əsaslanır.

30-1.10. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədlə rəsmiləşdirilir. Dövlət qulluqçusunun fəaliyyəti bütün tapşırıqlar (hədəflər), meyarlar, eləcə də əmək intizamı üzrə qiymətləndirilir və verilmiş qiymətlər əsaslandırılır. Dövlət qulluqçusu xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsi ilə razılaşmadıqda xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədə onun rəyi əlavə edilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri onun şəxsi işində saxlanılır.

30-1.11. Dövlət qulluqçusunun xidməti fəaliyyəti üzrə yekun qiymət müəyyən edildikdən sonra onunla müsahibə keçirilir. Müsahibə zamanı dövlət qulluqçusunun xidməti fəaliyyətinə

verilən qiymət və şərhlər müzakirə olunur. Müsahibə zamanı növbəti qiymətləndirilmə ili üçün tapşırıqlar (hədəflər) və onların mühümlük dərəcəsi müəyyən edilə bilər.

30-1.12. Dövlət orqanının rəhbəri tərəfindən dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi əsasında onun barəsində aşağıdakı tədbirlərdən biri görülə bilər:

30-1.12.1. dövlət qulluqçusunun mükafatlandırılması;

30-1.12.2. dövlət qulluqçusuna vaxtından əvvəl ixtisas dərəcəsinin verilməsi;

30-1.12.3. dövlət qulluqçusunun fəaliyyətinin və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə əlavə təhsilə və ya xüsusi təlimlərə cəlb edilməsi;

30-1.12.4. dövlət qulluqçusunun bilik və bacarıqlarına uyğun digər analoji vəzifəyə keçirilməsi;

30-1.12.5. dövlət qulluqçusunun aşağı inzibati vəzifəyə keçirilməsi.

30-1.13. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası və qiymətləndirilmə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

30-1.14. Dövlət qulluqçusu xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi ilə razılaşmadıqda inzibati qaydada və məhkəmə qaydasında şikayət etmək hüququna malikdir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 24 noyabr 2020-ci il.*
*N 202-VIQD*

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 11, maddə 387, N 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 3, maddə 226; 2001, N 11, maddə 683; 2002, N 8, maddə 463; 2004, N 2, maddə 57, N 5, maddə 321, N 8, maddə 598; 2005, N 4, maddə 278, N 6, maddə 464; 2006, N 3, maddə 225; 2007, N 11, maddələr 1049, 1053; 2010, N 4, maddə 276; 2012, N 5, maddə 414; 2014, N 11, maddə 1332; 2015, N 4, maddə 366; 2017, N 5, maddə 684; 2018, N 6, maddə 1158, N 7 (I kitab), maddələr 1406, 1429) aşağıdakı dəyişikliklər edilsin:

1. 17-1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"17-1.2. Yeni çağırış Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərin yekunlarına əsasən Azərbaycan Respublikasının Milli Məclisi səlahiyyətli tərkibdə formalaşdırıldığı gündən etibarən bu Qanunun 17-1.1-ci maddəsinə uyğun olaraq ayrılmış vəsait aşağıdakı qaydada bölünür və bu Qanunun 17-1.4-cü maddəsinə uyğun olaraq köçürülür:

17-1.2.1. vəsaitin 5 faizi irəli sürdüyü namizədlər Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərdə etibarlı səslərin azı 3 faizini qazanmış, lakin Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunmayan siyasi

partiyalar arasında qazanılmış səslərin sayına proporsional bölünür;

17-1.2.2. vəsaitin 40 faizi Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalar arasında bərabər bölünür;

17-1.2.3. vəsaitin 50 faizi Azərbaycan Respublikası Milli Məclisinin say tərkibinə (125-ə) bölünür və bunun nəticəsində alınan məbləğ Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalardan seçilmiş deputatların sayına vurulmaqla müəyyən edilmiş məbləğ həmin siyasi partiyalara ayrılır. Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş təkrar və əlavə seçkilər nəticəsində, həmçinin fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar, habelə digər səbəblərdən Azərbaycan Respublikasının Milli Məclisində siyasi partiyaları təmsil edən deputatların sayı artdıqda və ya azaldıqda bu vəsaitin həmin siyasi partiyalara ayrılması zamanı da bu maddənin birinci cümləsində nəzərdə tutulmuş qayda tətbiq olunur. Bu maddənin birinci cümləsində siyasi partiyalar üçün nəzərdə tutulmuş vəsaitin müvafiq rüb üzrə istifadə olunmamış hissəsi həmin rübün sonunda Azərbaycan Respublikasının Milli Məclisində siyasi partiyaları təmsil edən deputatların sayına uyğun olaraq proporsional qaydada siyasi partiyalara ayrılır;

17-1.2.4. vəsaitin 5 faizi Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş təkrar və əlavə seçkilər nəticəsində, həmçinin fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara bu Qanunun 17-1.2.2-ci maddəsinə əsasən aparılmış bölgü nəticəsində hər bir siyasi partiyanın müvafiq rüb üzrə payına düşən həcmdə ayrılır.".

2. Aşağıdakı məzmunda 17-1.2-1-ci, 17-1.2-2-ci, 17-1.2-3-cü və 17-1.2-4-cü maddələr əlavə edilsin:

"17-1.2-1. Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş təkrar və əlavə seçkilər nəticəsində Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara bu Qanunun 17-1.2.4-cü maddəsinə uyğun olaraq ayrılacaq vəsait həmin seçkilərin yekunları Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təsdiq edildiyi tarixdən sonrakı rübdən hesablanır.

17-1.2-2. Fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara deputatların sayına görə ayrılacaq vəsait həmin deputatların:

17-1.2-2.1. dövlət qeydiyyatından keçmiş siyasi partiyanın üzvü kimi qeydə alındığı tarixdən sonrakı rübdən və ya;

17-1.2-2.2. üzv olduğu siyasi partiyanın dövlət qeydiyyatına alındığı tarixdən sonrakı rübdən hesablanır.

17-1.2-3. İl ərzində bu Qanunun 17-1.2.4-cü maddəsinin tətbiqi zamanı vəsait çatışmazlığı yarandıqda həmin çatışmazlıq bu Qanunun 17-1.2.1-ci maddəsinə uyğun olaraq dövlət büdcəsindən siyasi partiyalara ayrılmış vəsait üzrə mövcud olan qənaət hesabına, həmin mənbə kifayət etmədikdə isə dövlət büdcəsindən ayrılan əlavə vəsait hesabına aradan qaldırılır.

17-1.2-4. Dövlət büdcəsindən siyasi partiyalara ayrılmış vəsaitin ilin sonuna qənaət olunmuş hissəsi Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalar arasında dördüncü rübün sonunda bərabər bölünür.".

3. 17-1.4-cü maddəyə "17-1.2-ci" sözlərindən sonra ", 17-1.2-4-cü" sözləri əlavə edilsin.

4. 17-1.5-ci maddədə "partiyalar" sözü "partiya" sözü ilə və "qaytarılır" sözü "qaytarılmaqla bu Qanunun 17-1.2-4-cü maddəsinə uyğun olaraq istifadə olunur" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 dekabr 2020-ci il.*
*N232-VIQD*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, N 4, maddə 767) ilə təsdiq edilmiş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.6-cı bəndə "alınma sözlər" sözlərindən sonra "(apellyasiya, attestasiya və akkreditasiya sözləri istisnadır)" sözləri əlavə edilsin və həmin bənddən ", apelyasiya" sözü çıxarılsın.

2. 4.10-cu bənddə "stres." sözü "stres və s." sözləri ilə əvəz edilsin.

3. 8.6-cı bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"8.6. Ali dövlət vəzifələri - Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikası Milli Məclisinin sədri kimi yazılır. Dövlət orqanları (qurumları), birlik, cəmiyyət, akademiya, universitet, kollec, teatr, filarmoniya, siyasi partiya, tarixi günlər və s. bu kimi mürəkkəb adların bütün sözlərinin (adına, üzrə, və, yanında, qarşı və s. bu kimi yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır: Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Yeni Azərbaycan Partiyası, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Bakı Şəhər İcra Hakimiyyəti, Ağstafa Rayon Təhsil Şöbəsi və s.".

4. 8.6-cı bəndin "Qeyd"i üzrə:

4.1. 1-ci hissədə "Tərkibində" sözü "Dövlət rəmzlərinin, həmçinin tərkibində" sözləri ilə əvəz edilsin və həmin hissəyə "yazılır:" sözündən sonra "Azərbaycan Respublikasının Dövlət Himni," sözləri əlavə edilsin;

4.2. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Azərbaycan Respublikasının səhiyyə naziri, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tipli mürəkkəb adlarda sahə (səhiyyə) və vəzifə (nazir) bildirən sözlər kiçik hərflə yazılır.".

5. 8.8-ci bəndə "dırnaqda və" sözlərindən sonra "birinci sözü" sözləri əlavə edilsin və həmin bənddə "İstiqlal" ordeni, "Azərbaycan Bayrağı" ordeni" sözləri "Vətənə xidmətə görə" ordeni, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı" sözləri ilə əvəz edilsin.

6. 9-cu hissə üzrə:

6.1. adı aşağıdakı redaksiyada verilsin:

"9. İxtisarlar (akronimlər) və qısaltmalar";

6.2. 9.1-ci bənddə "İxtisar və qısaltmalar" sözləri "İxtisarlar (akronimlər) və qısaltmalar" sözləri ilə əvəz edilsin;

6.3. 9.1.1-ci yarımbəndə "ixtisarlar" sözündən sonra "(akronimlər)" sözü əlavə edilsin;

6.4. 9.1.3-cü yarımbənddə "böyük və" sözləri "böyük və ya" sözləri ilə və "Azərbaycan Nəşriyyatı" sözləri "Azərbaycan Dövlət Nəşriyyatı" sözləri ilə əvəz edilsin;

6.5. 9.2-ci bəndə "İxtisarlara" sözündən sonra "(akronimlərə)" sözü əlavə edilsin və həmin bənddə "UNESKO-nun, İSESKO-da" sözləri "UNESCO-nun, ISESCO-da" sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının**
**Baş Naziri**

*Bakı şəhəri, 3 noyabr 2020-ci il.*
*N 438*

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1865 Tiraj:1100 ədəd